RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 166 (9045) BAZAR, 7 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# MÜZƏFFƏR ORDU

## Xalqın güvənc yeri, dövlətin dayağı

**İlham Əliyevin yeni hərbi islahatları silahlı qüvvələrimizin maddi-texniki təminatını və yüksək döyüş hazırlığını daha da gücləndirir**

→ 3

## ABŞ bölgədəki gərginlikdən narahatdır

### Antoni Blinken İlham Əliyevə zəng edib





Avqustun 5-də ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı ABŞ dövlət katibi bölgədə yaranmış gərginliklə bağlı narahatlığını bildirib.

Yaranmış gərginliyə görə bütün məsuliyyətin rəsmi İrəvanın üzərinə düşdüyünü bildirən Prezident İlham Əliyev qeyd edib ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən hərbi təxribat törədilib və nəticədə Azərbaycanın hərbi qulluqçusu həlak olub. Prezident İlham Əliyev Azərbaycan tərəfinin bu hərbi təxribatın qarşısını almaq üçün zəruri cavab tədbirlərini həyata keçirdiyini vurğulayıb. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan tərəfi 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni hərbi birləşmələrinin ərazilərimizdən çıxarılması məsələsini dəfələrlə gündəliyə gətirib. Amma Ermənistan tərəfindən bu öhdəlik yerinə yetirilmir, müxtəlif bəhanələr və ziddiyyətli bəyanatlar səsləndirilir.

Prezident İlham Əliyev Azərbaycan tərəfindən Laçın dəhlizinə alternativ yolun inşasının başa çatmaq üzrə olduğunu deyib və vurğulayıb ki, bu yol hazır olandan sonra üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq Rusiya sülhməramlı qüvvələrinin kontingenti həmin yola dislokasiya ediləcək.

Telefon söhbəti əsnasında ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## Ölkəmizin irəli sürdüyü təşəbbüsləri Panama həmişə dəstəkləyib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Panama Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Mariela del Karmen Sagel Rosasın etimadnaməsini qəbul edib.

→ 2

## Azərbaycan və Ruanda arasında əməkdaşlıq üçün yeni sahələrin müəyyənləşdirilməsi zəruridir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Ruanda Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fidelis Ntampaka Mironkonun etimadnaməsini qəbul edib.



→ 2

## Azərbaycanda sosialyönümlü dövlət modeli formalaşıb

### Bu, vətəndaşların sosial rifahının daha da yüksəlməsinə xidmət edir

Azərbaycan Prezidentinin göstərişi ilə şəhid ailələrinin, müharibə əlillərinin, qazilərin sosial rifahının yaxşılaşdırılması, onların təminatının gücləndirilməsi istiqamətində mütəmadi olaraq dövlət siyasəti həyata keçirilir. Məhz bu siyasət nəticəsində Azərbaycan şəhid ailələrinə, müharibə əlillərinə, veteranlara ən çox diqqət və qayğı göstərən dövlətdir.

Bu gün ölkəmizdə vətəndaşların sosial müdafiəsinə xüsusi diqqətlə yanaşılır, çox mühüm layihələr həyata keçirilir. Dövlət başçısının rəhbərliyi ilə bu istiqamətdə görülən işlərin nəticəsini xüsusi qayğıya ehtiyacı olanlar daim öz həyatlarında hiss edirlər.

→ 3

## Baş verən insidentin bütün məsuliyyəti Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür

### Dərs almasalar, cavab daha sərt olacaq

Ermənilər yenə yollarını azdılar. Bir sözlə, cızıqlarından çıxdılar. Deyəsən, başları yenə "dəmir yumruq" istəyir. Əslinə qalsa, ermənilərin heç vaxt yolu olmayıb. Həmişə ipləri başqalarının əlində olub. Hara çəkiblərsə, ora da gediblər. Müstəqilliyimizi, inkişafımızı gözü götürməyənlər illərdir ki, erməniləri qara ilan kimi yolumuzun üstünə atırlar. Müdriklərin belə bir deyimi var: "Ya bir yol tap, ya bir yol aç, ya da yoldan çəkil". Bu binəvalar nə yol tapa bilirlər, nə yol aça... Nə də yolumuzdan çəkilirlər.

→ 3

## Türkiyə-Rusiya əməkdaşlığında yeni səhifə açılır

### Rəcəb Tayyib Ərdoğanla Vladimir Putin arasındakı 4 saatlıq görüşdə mühüm məsələlər müzakirə edilib

Soçi şəhərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya Prezidenti Vladimir Putin arasında keçirilən görüş 4 saat davam edib.

Görüş zamanı Vladimir Putin türkiyəli həmkarına taxılın Qara dəniz limanlarından daşınmasında və Rusiya ərzaq məhsullarının ixracına dair İstanbul sazişinin imzalanmasında səylərinə görə təşəkkür edib. Rusiya lideri bildirib ki, danışıqların nəticələrinə görə ticarət-iqtisadi əlaqələrin inkişafına dair memorandum imzalamaq mümkün olacaq.

→ 2



# Qarabağın və Şərqi Zəngəzurun çayları əkinçinin köməyinə gəlir

→ 5

# Ölkəmizin irəli sürdüyü təşəbbüsləri Panama həmişə dəstəkləyib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Panama Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Mariela del Karmen Sagel Rosasın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Mariela del Karmen Sagel Rosas etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə Qoşulmama Hərəkatında yaxşı əməkdaşlığın həyata keçirildiyini bildirdi, Azərbaycanın bu təşkilata sədrlik müddətinin uzadılmasının, o cümlədən COVID-19 ilə bağlı ölkəmizin irəli sürdüyü təşəbbüslərin Panama tərəfindən dəstəkləndiyinə görə minnətdarlığını ifadə etdi. Dövlətimizin başçısı Azərbaycanın sədr kimi Qoşulmama Hərəkatının institusional inkişafı istiqamətində səylər göstərdiyini bildirərək, bununla bağlı artıq iki mühüm tədbirin - Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransının və Qoşulmama Hərəkatı Gənclər Sammitinin çox uğurla keçirildiyini vurğuladı və bunun Hərəkatın fəaliyyətinə yeni dinamika verdiyini dedi, bu baxımdan təşkilata üzv dövlətlərin dəstəyinin rolunu qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın təşkilata sədrlik müddətinin uzadılması barədə üzv dövlətlər tərəfindən yekdil qərarın qəbul edilməsini ölkəmizə göstərilən böyük dəstəyin və hörmətin ifadəsi kimi dəyərləndirdi.

İkitərəfli münasibətlərə toxunan dövlətimizin başçısı iqtisadi sahədə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsinin və biznes dairələri arasında informasiya qıtlığının aradan qaldırılmasının zəruriliyini bildirdi, yeni təyin olunan səfirin iki ölkənin əlaqələrinin genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən xanım Mariela del Karmen Sagel Rosas qeyd etdi ki, Panama ərazisinin kiçik olmasına baxmayaraq, böyük iqtisadi-ticari imkanlara malikdir. Xanım Mariela del Karmen Sagel Rosas bu baxımdan ölkəsinin beynəlxalq hab olması imkanlarından istifadə edilməsinin mümkünlüyünü diqqətə çatdırdı. Səfir eyni zamanda ölkələrimiz arasında ticarət, mədəniyyət və digər sahələrdə əlaqələrimizin genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

# Azərbaycan və Ruanda arasında əməkdaşlıq üçün yeni sahələrin müəyyənləşdirilməsi zəruridir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Ruanda Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fidelis Ntampaka Mironkonun etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir Fidelis Ntampaka Mironko etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında həm ikitərəfli səviyyədə, həm də beynəlxalq təşkilatlar çərçivəsində daha yaxın əlaqələrin qurulmasının zəruriliyini qeyd edərək Azərbaycanla Ruandanın BMT və Qoşulmama Hərəkatında əməkdaşlığına toxundu. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətinin uzadılmasına verdiyi dəstəyə və Ruandanın ölkəmizin sədr qismində irəli sürdüyü təşəbbüsləri, xüsusilə də COVID-19 ilə bağlı səylərini dəstəklədiyinə görə minnətdarlığını ifadə etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın bu istiqamətdə səylərinin əsas məqsədi vaksinlərin ədalətli bölüşdürülməsi və vaksin millətçiliyinə qarşı mübarizə olmuşdur. İkitərəfli münasibətlərə gəldikdə, əməkdaşlıq üçün yeni sahələrin müəyyənləşdirilməsinin zəruriliyini qeyd edən dövlətimizin başçısı bu baxımdan nümayəndə heyətlərinin və biznes qruplarının qarşılıqlı səfərlərinin təşkil olunmasının əhəmiyyətini vurğuladı.

Səfir Fidelis Ntampaka Mironko Ruanda Respublikasının Prezidenti Pol Kaqamenin salamlarını dövlətimizin başçısına çatdırdı, onun Azərbaycana səfərini ehtiramla xatırladı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Ruanda Prezidentinə çatdırmağı xahiş etdi.

Səfir ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi üçün Azərbaycanın müvafiq strukturları ilə bundan sonra da fəal təmasların qurulacağına əminliyini bildirdi.



# Türkiyə-Rusiya əməkdaşlığında yeni səhifə açılır

## Rəcəb Tayyib Ərdoğanla Vladimir Putin arasındakı 4 saatlıq görüşdə mühüm məsələlər müzakirə edilib

Soçi şəhərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya Prezidenti Vladimir Putin arasında keçirilən görüş 4 saat davam edib.



Görüş zamanı Vladimir Putin türkiyəli həmkarına taxılın Qara dəniz limanlarından daşınmasında və Rusiya ərzaq məhsullarının ixracına dair İstanbul sazişinin imzalanmasında səylərinə görə təşəkkür edib. Rusiya lideri bildirib ki, danışıqların nəticələrinə görə ticarət-iqtisadi əlaqələrin inkişafına dair memorandum imzalamaq mümkün olacaq.

V.Putin həmçinin "Türk axını" boru kəmərinin fasiləsiz işlədiyini, onun Avropanın Rusiya qazı ilə təminatında mühüm marşrut olduğunu vurğulayıb: "Təkcə onu xatırlatmaq kifayətdir ki, ötən il ticarət dövriyyəmiz 57 faiz, bu ilin ilk aylarında isə may ayı daxil olmaqla iki dəfə artıb. Bizim böyük layihələrimiz var. "Akkuyu" AES-in tikintisi hamıya məlumdur. Ancaq başqa sahələr də var - bu, çox vacib olan enerjidir. Bununla bağlı qeyd etmək istərdim ki, tikintisini bir müddət əvvəl başa çatdırdığımız "Türk axını" bu gün Avropanı Rusiya qazı ilə təmin edən ən mühüm arteriyalardan biridir. "Türk axını" bizim Avropaya karbohidrogen nəqlinin bütün digər istiqamətlərindən fərqli olaraq, düzgün, ritmik, heç bir nasazlıq olmadan işləyir. Mən təkcə Türkiyədəki istehlakçılara deyil, Avropadakı istehlakçılara da çatdırılmanı nəzərdə tuturam. Ona görə də hesab edirəm ki, avropalı tərəfdaşlar qazımızın Avropa bazarına fasiləsiz tranzitini təmin etdiyinə görə Türkiyəyə minnətdar olmalıdırlar. Amma Türkiyənin özündə istehlak üçün neft, qaz, kömür və digər mallar - hər şey böyük həcmdə, miqdarda, heç bir pozuntu olmadan gedir".

Rusiya Prezidenti xatırlatma edib ki, məhz Rəcəb Tayyib Ərdoğanın birbaşa iştirakı və Birləşmiş Millətlər Təşkilatı Katibliyinin vasitəçiliyi ilə Qara dəniz limanlarından Ukrayna taxılının tədarükü ilə bağlı məsələ həll olunub. Türkiyəli həmkarına bu məsələyə görə də təşəkkür edən Rusiya lideri qeyd edib ki, bu addım bir çox ölkə, ilk növbədə, inkişaf etməkdə olan dövlətlər üçün vacib rol oynayıb və onlara ciddi ərzaq böhranından xilas olmaq imkanı verib. V.Putin bunun ərzaq və su təminatı ilə bağlı böyük problemlərin astanasında olan ölkələr üçün çox vacib olduğunu vurğulayıb: "Şəxsən sizin iştirakınızla qəbul edilmiş bu qərarlar bütün bu ölkələr üçün çox böyük əhəmiyyət kəsb edir. Buna görə sizə öz təşəkkürümü bildirirəm".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Vladimir Putinə minnətdarlığını bildirərək qeyd edib ki, həm Tehran, həm də Soçi görüşlərində nümayəndə heyətləri bir çox məsələlərlə bağlı müzakirə aparıb. Bütün bunlar isə onu deməyə əsas verir ki, əməkdaşlıqda yeni səhifə açılacaq: "İnanıram ki, Türkiyə-Rusiya münasibətlərimizdə yeni səhifə açacağıq. Bu, enerjiyə də aiddir, bu, xüsusən də bizim addımlar atdığımız Qara dənizdən keçən "taxıl dəhlizi"nə aiddir. Bütün bu məsələlərlə bağlı addımlar atılıb. Türkiyənin nöqteyi-nəzərindən Rusiya bu məsələdə dünya səhnəsində rol oynayır. Hesab edirəm ki, bu baxımdan vacib məsələlərə daha çox diqqət yetirməliyik və inanıram ki, bu, terrorizmlə mübarizədə regionda vəziyyəti asanlaşdıracaq. Bu baxımdan bizim həmrəyliyimiz böyük əhəmiyyət kəsb edir. Addımlarımız, görüşlərimiz bütün bu tendensiyanı, əlaqələrimizi gücləndirəcək".

Qeyd edək ki, görüşün yekunlarına dair birgə bəyanat da imzalanıb. Görüşdən sonra yayımlanan birgə bəyanatda Türkiyə ilə Rusiya arasındakı səmimi və etimada əsaslanan əlaqələrin əhəmiyyətinə diqqət yetirilib. Liderlər Suriyadakı bütün terror təşkilatlarına qarşı əlaqəli şəkildə mübarizə aparmaq məsələsindəki qətiyyətlərini ifadə ediblər, həmçinin iki ölkə arasındakı konstruktiv münasibətlərin Ukraynadan taxıl və ərzaq məhsullarının daşınması ilə əlaqədar bağlanan sazişin əldə olunmasında böyük rol oynadığını vurğulayıblar.

Bəyanatda liderlər regional və qlobal təhdidlərə baxmayaraq, Rusiya-Türkiyə münasibətlərini inkişaf etdirmək niyyətində olduqlarını bildiriblər. Tərəflər qarşılıqlı ticarətin həcmini artırmaq, nəqliyyat, kənd təsərrüfatı, sənaye, turizm və tikinti sektorlarında birgə fəaliyyəti genişləndirmək üçün addımlar atmağı qərara alıblar.

Görüşün yekunları barədə jurnalistlərə məlumat verən Rusiyanın Baş nazirinin müavini Aleksandr Novak jurnalistlərə bildirib ki, liderlər qaz tədarükünü də müzakirə ediblər və qismən rublla ödəniş barədə razılığa gəliblər: "Mühüm komponent, Türkiyə Respublikasına kifayət qədər böyük həcmdə - ildə 26 milyard kubmetr həcmində qazın tədarükü oldu. Danışıqlar zamanı prezidentlər razılaşdılar ki, biz qazın qismən tədarükünə başlayacağıq və ödənişi rublla edəcəyik".

Bundan əlavə, liderlər Ukrayna taxılı və Rusiya ərzağının ixracına dair İstanbul sazişinin yerinə yetirilməsinin vacibliyini vurğulayıblar. Görüşdə energetika sahəsində əməkdaşlıq məsələləri, o cümlədən "Türk axını" borusu ilə əlaqədar məsələlər müzakirə olunub. A.Novakın dediyinə görə, Soçi görüşündə maliyyə və bank sahəsində də razılıq əldə edilib, Türkiyədə inşa edilən "Akkuyu" Atom Elektrik Stansiyasının 2023-cü ildə istismara verilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Ceyhun Bayramov ilə İliya Darçiaşvili arasında telefon danışığı olub

Avqustun 6-da xarici işlər naziri Ceyhun Bayramov ilə gürcüstanlı həmkarı İliya Darçiaşvili arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Gürcüstan xarici işlər naziri İliya Darçiaşvili avqustun 4-də Azərbaycanın Londondakı səfirliyinə edilən hücumu qınayıb və Azərbaycan ilə həmrəylik ifadə edib.





Nazir Ceyhun Bayramov dəstəyə görə gürcü həmkarına təşəkkür edib. O, törədilən təxribatın hərtərəfli araşdırılması və cavabdeh şəxslərin qanun qarşısında cavab verməsinin vacibliyini vurğulayıb və bununla bağlı Birləşmiş Krallığın aidiyyəti qurumları tərəfindən müvafiq işin aparıldığını qeyd edib.

# Diaspor Gənclərinin Yay Düşərgəsinin iştirakçıları Qarabağın inkişaf strategiyası barədə məlumatlandırılıb

Diaspor Gənclərinin Şuşada keçirilən III Yay Düşərgəsi çərçivəsində "Qarabağın inkişaf strategiyası" mövzusunda panel iclası keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, komitə sədrinin müavini Elşad Əliyevin moderatorluğu ilə aparılan panel iclasında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədr müavini Samir Hümbətov, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin mədəni irsin qorunması şöbəsinin müdiri Ruslan Ənvərli, İqtisadiyyat Nazirliyinin Ərazilərin bərpası və inkişafı şöbəsinin müdir müavini Vüsal Qarayev, Azərbaycan Turizm Bürosunun Turizm məhsulunun inkişafı şöbəsinin rəhbəri Şərifə Həsənova çıxış ediblər.

Düşərgə iştirakçılarına Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən yenidənqurma, bərpa-tikinti işləri, açılacaq iş yerləri, turizm potensialı, tarixi-mədəni irsin qorunması və "Böyük qayıdış" layihəsi ilə əlaqədar planlar barədə ətraflı məlumat verilib.

Emin Hüseynov bildirib ki, Qarabağ iqtisadi rayonunda 2040-cı ilə qədərki üç mərhələdən ibarət olan bərpa planının ilk mərhələsinin 2026-cı ildə yekunlaşdırılması nəzərdə tutulub. Birinci mərhələyə Ağdam, Füzuli şəhər mərkəzlərinin, Hadrut, Suqovuşan qəsəbələrinin və 32 kəndin bərpa prosesi daxildir. O, Hadrut və Suqovuşan qəsəbələrinin, Talış və Tuğ kəndlərinin vacib turizm məntəqələrinə çevrilməsinin planlaşdırıldığını vurğulayaraq, Qarabağ iqtisadi rayonunda müxtəlif sahələr üzrə yaradılacaq iş yerlərinin statistikasını təqdim edib.

Vahid Hacıyev qeyd edib ki, Zəngilan şəhərinin özünəməxsus simasını formalaşdırmaqdan ötrü baş planda tarixi abidələrin, ətraf mühitin qorunması nəzərdə tutulub və müasir yanaşmalar tətbiq edilib. Zəngilan şəhəri kiçikmərtəbəli binalardan və fərdi yaşayış evlərindən ibarət olacaq. İşğal illərində Zəngilanın ekosisteminə vurulan zərəri aradan qaldırmaq məqsədilə rayon ərazisində indiyədək 2000 çinar ağacı və 1000 kiloqrama yaxın palıd toxumu əkilib. Minalardan təmizlənmiş Ağalı kəndinin yerində "ağıllı kənd" konsepsiyasına uyğun olaraq yeni və müasir qəsəbənin salındığını xatırladan xüsusi nümayəndə əlavə edib ki, bu yaşayış məskənində 200 ev, uşaq bağçası, məktəb və bir neçə inzibati binanın inşası başa çatdırılıb, 150 evin, iki və üçmərtəbəli binaların tikintisi davam etdirilir. Artıq 41 ailənin 201 üzvünə evlərin açarlarının təqdim edildiyi, qəsəbədə məşğulluq probleminin olmadığı, sakinlərin əksəriyyətinin işlə təmin olunduğu vurğulanıb. Dayanıqlı kənd təsərrüfatının, turizm potensialının inkişafı üçün əlverişli mühitin olduğu, yerli və xarici sərmayənin yatırılması nəticəsində müxtəlif layihələrin artıq həyata keçirilməyə başladığı bildirilib. Zəngəzur dəhlizinin bir parçası olan və əlverişli coğrafi mövqeyə malik Zəngilanın bölgədə mühüm logistika məkanına çevriləcəyinə diqqət cəlb edilib.

Sonra Zəngilanın işğaldan əvvəlki və sonrakı vəziyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Məftun Abbasov deyib ki, düşərgə iştirakçıları Şuşada gəzintilər zamanı özləri işğal nəticəsində şəhərə vurulmuş zərərin canlı şahidi olublar. Müharibədən sonra cəmi 7 ay ərzində Zəfər yolunun çəkilməsi ilə Şuşa şəhərinin logistik problemlərinə son qoyulduğu, hazırda mədəniyyət paytaxtımıza ikinci yolun çəkilməsi ilə əlaqədar işlərin aparıldığı, 6 zolaqlı həmin yol təhvil verildikdən sonra Füzuli rayonundan Şuşaya 30-40 dəqiqəyə çatmağın mümkün olacağı bildirilib. Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən layihələr əsasında bir sıra tarixi və mədəni abidələrin artıq bərpa edildiyi, hazırda bu işin davam etdirildiyi və qısa müddət ərzində yekunlaşacağı vurğulanıb. Şuşanın Baş planının Böyük Britaniyanın "Chapman Taylor" şirkəti tərəfindən hazırladığını xatırladan M.Abbasov bildirib ki, plana əsasən, şəhərdə yaşayış binalarının, yaşıl dəhlizlərin inşa edilməsi, şəhər mərkəzinin, qorunub saxlanılacaq tarixi bina və abidələrin yerləri öz əksini tapıb.

Düşərgə iştirakçılarını Şuşa şəhərində görməkdən məmnunluğunu bildirən Samir Hümmətov söyləyib ki, hazırda KOBİA-nın əsas hədəfi işğaldan azad edilmiş ərazilərimizdə məşğulluğun təmin olunması və sahibkarlığın inkişaf etdirilməsidir.

Ruslan Ənvərli bildirib ki, bölgədəki tarixi, dini və mədəni abidələrin durumu və dünya standartlarına uyğun bərpası ilə bağlı təlimat hazırlanıb. Dünyada tanıdılması və təbliğ olunması məqsədilə həmin abidələrin UNESCO-nun mədəni irs siyahısına salınması istiqamətində iş aparılır: "Şuşada 210 tarixi və mədəniyyət abidəsi var. Onun təxminən 140-ı qoruq, digərləri isə qoruq kənarı ərazilərə düşür. Düşünürük ki, qısa müddət ərzində işğaldan azad edilmiş torpaqlarımızın, o cümlədən Şuşanın mədəni simasını özünə qaytaracağıq, növbəti səfərlərinizdə hər günün və hər anın daha fərqli olacağını özünüz hiss edəcəksiniz. Mədəni-tarixi abidələrin bərpası üzrə peşəkar mütəxəssis olan diaspor nümayəndələrimiz öz layihələri ilə Mədəniyyət Nazirliyinə müraciət edə bilərlər".

Dövlətimizin turizm siyasəti barədə ətraflı məlumat verən Şərifə Həsənova bildirib ki, son 2 il ərzində işğaldan azad edilmiş Qarabağın turizm dəhlizi kimi tanıdılmasına start verilib. Keçən aydan başlayaraq isə bütün beynəlxalq sərgilərdə Qarabağ istiqamətində turizm marşrutunun mümkünlüyünə dair stendlər təqdim edilir.

Vüsal Qarayev bildirib ki, azad edilmiş ərazilərin bərpası üzrə əsas prioritetlər idarəetmə və təhlükəsizlik, infrastruktur layihələrinin həyata keçirilməsi, iqtisadi fəallığın təmin edilməsi və iqtisadi sahədə həyata keçirilən digər addımlardır.

Panel iclası düşərgə iştirakçılarının suallarının cavablandırılması ilə yekunlaşıb.

# Müzəffər ordu



## Xalqın güvənc yeri, dövlətin dayağı

### İlham Əliyevin yeni hərbi islahatları silahlı qüvvələrimizin maddi-texniki təminatını və yüksək döyüş hazırlığını daha da gücləndirir

İkinci Qarabağ müharibəsindəki şanlı Zəfər bir daha təsdiq etdi ki, Azərbaycan regionda ən güclü orduya malik ölkədir. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğu nəticəsində Azərbaycan Ordusu çevik, peşəkar və müasir tələblərə cavab verən Silahlı Qüvvələr kimi formalaşıb. Vətən maharibəsindən sonra isə ordunun daha da modernləşməsi istiqamətində qarşıya yeni vəzifələr, tələblər qoyulub və bu gün həmin proses uğurla davam etdirilir.

#### Yeni mərhələyə keçən ordu quruculuğu

Vətən müharibəsi ordumuz üçün həm də bir sınaq oldu. İllərlə keçirilən təlimlər, alınan müasir silah-sursatlar, texnikalardan yararlanma və ən başlıcası isə vahid komandanlıq sisteminin idarəedilməsinin uğurlu nəticəsi göz qabağında oldu. Bununla yanaşı, çatışmazlıq, əskiklik olan tərəflər də müəyyənləşdirildi və aradan qaldırıldı.

Vətən savaşında böyük döyüş təcrübəsi toplayan silahlı qüvvələrimizin hazırda maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində mühüm işlər görülür. İşğaldan azad olunan bölgələrdə xüsusi təyinatlı hərbi hissələrin yaradılması, onların müasir hərbi texnika və silah-sursatla təchizatı bunun əyani təzahürüdür. Xüsusən də yeni yaradılan komando briqadaları müasir yeniliklərdən biridir və Azərbaycanda bir ilkdir.

Qalib sərkərdə İlham Əliyevin göstərişinə əsasən, müxtəlif hərbi təlimlərin keçirilməsi, hərbi hissələrin döyüş hazırlığının yüksək səviyyəyə çatdırılması, ordumuzun müasir silah, hərbi texnika ilə təchiz edilməsi və bir sıra digər tədbirlər Azərbaycanın Ermənistan üzərində qazandığı üstünlüyün qorunub saxlanmasını təmin edir.

Bir müddət öncə müdafiə naziri general-polkovnik Zakir Həsənov "Azərbaycan" qəzetinə verdiyi məxsusi müsahibəsində məhz bu məsələlərə toxunaraq qeyd etmişdi ki, müharibədən sonra Ali Baş Komandan Azərbaycan Ordusu qarşısında yeni tapşırıqlar qoyub və hərbi islahatların növbəti mərhələsinin başlanması barədə göstəriş verib. Qalib komandan modernləşmə, silahlanma və hazırlıq sahələrində ordunun ən yüksək göstəricilərə sahib olması üçün konkret plan və tədbirlər hazırlayıb, onların təxirəsalınmaz icrasını tapşırıb.

Bununla yanaşı, hazırda bir çox hərbi hissələrimiz azad edilmiş ərazilərimizə dislokasiya edilir və ya həmin ərazilərdə yeni hərbi hissələr, şəhərciklər salınır. Dislokasiya olunan bölmələrimizdə qoşun xidmətinin təşkili, şəxsi heyətin döyüş hazırlığının və döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, yeni hərbi infrastruktur obyektlərinin yaradılması, bölmələrin və idarəetmə məntəqələrinin fəaliyyətinin yaxşılaşdırılması, döyüş planlarının dəqiqləşdirilməsi, maddi-texniki, tibbi təminatın davamlı yüksəldilməsi, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi və bu kimi digər məsələlərin həlli gündəlik fəaliyyətin əsas prioritetlərindəndir.

#### Hərbi islahatlar-modern silah-sursatla təchizat, yüksək döyüş hazırlığı

Peşəkar ordunun formalaşdırılması çoxşaxəli prosesdir. Bunun üçün uzun illər, bəzən onilliklər tələb olunur. Ancaq İlham Əliyevin hərbi islahatları bir daha təsdiq edir ki, Azərbaycan Silahlı Qüvvələri hazırda dünyanın ən güclü orduları sırasındadır.

Bununla belə, Ali Baş Komandan konkret planlar, tədbirlər əsasında hərbi islahatlarını davam etdirir və ordumuzun arsenalını getdikcə daha da gücləndirir. Bu da səbəbsiz deyil. Elə məhz bu məsələyə İlham Əliyev bir daha aydınlıq gətirərək Azərbycanın hərbi quruculuq işlərinin davam etdirilməsinin səbəblərini bir neçə aspektlə əsaslandırıb. Prezident vurğulayıb ki, ilk olarq, müharibə dövründə Azərbaycan Ordusu kifayət qədər döyüş sursatından istifadə edib və bu gün onlar bərpa edilməlidir. Bunun üçün bağlanmış yeni müqavilələr əsasında ordumuzun arsenalı ən yeni silah-sursat, hərbi texnikalarla təchiz edilir.

Digər məsələ isə silahlı qüvvələrin döyüş qabiliyyətinin artırılmasıdır. Çünki İkinci Qarabağ müharibəsi böyük Qələbə ilə yanaşı, həm də əməliyyatların aparılması sahəsində böyük təcrübə oldu. Bu, Silahlı Qüvvələrin təlim şəraitində deyil, əməli işdə yoxlanması prosesi idi ki, ordumuz bu yoxlamadan şərəflə çıxdı.

Ali Baş Komandanın tapşırıqlarından biri də yeni Komando xüsusi təyinatlı qüvvələrin yaradılması idi. Artıq bu tapşırıq da uğurla icra olunur. Müxtəlif ərazilərdə komando briqadaları yaradılır. Komando qüvvələrinin yaradılması ordumuzun hərbi potensialının təkmilləşdirmə elementlərindən yalnız biridir və lakin çox vacib elementdir.

Komando briqadalarının yaradılması ölkəmiz üçün yenilikdir. Bu briqadalarda yüksək təlim keçmiş, iradəli və Vətən uğrunda özlərini fəda etməyə hazır olan hərbçilər xidmət edirlər. Komando briqadası ən son hərbi avadanlıq və silahlarla təchiz edilmiş müqaviləli mütəxəssislərdən ibarət daim hazırlıqlı, yüksək mobil hava-desant hücum birləşməsidir. Onlar günün istənilən vaxtında həm dağlıq, həm meşəlik ərazilərdə, həm də şəhər şəraitində hər an baş verə biləcək silahlı münaqişələrdə dərhal döyüşməyə hazırdırlar. Bu briqadalar təcrid olunmuş və ya əsas qüvvələrdən ayrı qaldığı halda vahid informasiya kommunikasiya məkanında qalıb, döyüş əməliyyatlarını aparmağa qadirdilər.

Göründüyü kimi, həyata keçirilən uğurlu proseslər, eləcə də müasir texnologiyaların tətbiqi ilə qoşunlarda yaradılan avtomatlaşdırılmış komanda idarəetmə məntəqələri silahlı qüvvələrin bütün qoşun növlərinin dayanıqlı, operativ, gizli və fasiləsiz idarə olunmasına imkan yaradıb. Hərbi hissələrin, əsasən də cəbhə xəttindəki bölmələrin yeni növ silah, döyüş texnikası və digər hərbi vasitələrlə təchiz edilməsi, raket və artilleriya qoşunlarının arsenalında olan müasir raket kompleksləri və atəşi idarəetmə sistemləri qoşunların döyüş qabiliyyətini xeyli yüksəldərək düşmənin canlı qüvvəsini, döyüş texnikasını və hərbi infrastrukturunu məhv etmək imkanlarını genişləndirib.

#### Yalan məlumatlarla əhali arasında çaşqınlıq yaratmaq yolverilməzdir

Əlbəttə ki, bütün bunlar Azərbaycanın gücünün, qüdrətinin göstəricisidir. Hər bir azərbaycanlı da bununla qürur duyur. Peşəkar jurnalistlərimiz ordumuzun gündən-günə güclənən qüdrətindən, yüksələn vətənpərvərlik hissindən və aparılan islahatlardan rəsmi mənbələrə əsaslanan maraqlı reportajlar, məqalələr hazırlayıb ölkə ictimaiyyətinə və dünyaya təqdim edirlər. Lakin təəssüflə qeyd etməliyik ki, son vaxtlar bəzi sosial şəbəkələrdə "fenomen" olmaq istəyən və özlərini "jurnalist" kimi təqdim edən şəxslər bu uğurlu prossesə kölgə salmağa cəhd edirlər. Həmin şəxslər diqqət çəkmək, izləyici toplamaq məqsədi ilə müxtəlif adlar altında Vətən müharibəsi və təlimlər zamanı Azərbaycan Ordusunun fəaliyyətini, döyüş texnikalarının hərəkətini əks etdirən foto və video görüntülərin üzərinə yeni tarixlər yazaraq yalan, uydurma informasiya yayırlar. Bu cür xəbərlər də təbii ki, əhali arasında çaşqınlıq yaradır. Müdafiə Nazirliyinin dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, belə yaramaz fəaliyyət davam etdirilir.

Hətta həmin şəxslər Ermənistan mətbuatının yaydığı yalan informasiyaları da öz səhifələrində paylaşmaqla böyük səhvlərə yol verirlər. Belə olan halda şübhələr də yaranır ki, bəlkə də bu insanlar nəyinsə müqabilində hansısa antiazərbaycançı qüvvələrə xidmət edirlər. Özlərini jurnalist adlandıran belələri anlamırlar ki, ordumuzla bağlı yaydıqları hər hansısa informasiya düşmən dəyirmanına su tökmək kimi bir şeydir.

Avqustun 1-də Müdafiə Nazirliyi bir daha bu məsələ ilə bağlı sosial şəbəkə istifadəçilərinə müraciət edib. Müraciətdə qeyd edilir ki, son günlər sosial şəbəkələrdə müxtəlif adlar altında Vətən müharibəsi və təlimlər zamanı Azərbaycan Ordusunun fəaliyyətini, hərbi kolonların, eləcə də döyüş texnikalarının hərəkətini əks etdirən foto və videogörüntülər yeni məlumat kimi paylaşılır. Nazirlik belə məlumatları yayanları ictimaiyyət arasında çaşqınlıq yaratmamağa çağıraraq bəyan edib ki, yalnız öz təsdiqini tapmış və qurumun rəsmi internet səhifəsində, həmçinin sosial şəbəkə hesablarında paylaşılan məlumatlara istinad etməlidirlər.

Görünən odur ki, dəfələrlə edilən xəbərdarlığa baxmayaraq, həmin şəxslər Azərbaycan Ordusunun işgüzar nüfuzuna xələl gətirməyə və həqiqətə uyğun olmayan informasiyalar yaymağa davam edirlər. Bu səbəbdən də hüquq-mühafizə orqanları belə təxribat xarakterli məsələlərlə bağlı mübarizə tədbirlərini gücləndirməlidirlər. Əgər bu cür dezinformasiyaların qarşısı vaxtında alınmasa, belələrinin sayı getdicə arta bilər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycanda sosialyönümlü dövlət modeli formalaşıb

## Bu, vətəndaşların sosial rifahının daha da yüksəlməsinə xidmət edir

*Əvvəli 1-ci səh.*

Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərin mənzil-məişət məsələlərinin həlli yönündə ciddi işlər aparılır. Onların avtomobillə təmin olunması üçün ardıcıl tədbirlər həyata keçirilir. Sosial məsələlərin həlli ilə bağlı ortaya qoyulan siyasi iradə və atılan praktik addımlar deməyə əsas verir ki, Azərbaycanda artıq sosialyönümlü dövlət modeli formalaşıb.

44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri, müharibə əlilləri və iştirakçıları genişmiqyaslı sosial dəstək proqramları ilə əhatə olunublar. Bu kateqoriyadan olan insanların mənzillə təminatı proqramı 5 dəfə genişlənmiş, postmüharibə dövründə onlara 3600, ümumiyyətlə, ötən dövrdə 12500-dən çox mənzil və fərdi ev, 7450 nəfər müharibə əlilinə minik avtomobili verilmiş, ümumilikdə 330 müharibə əlili yüksək texnologiyalı son nəsil protezlərlə təmin olunmuşdur. Bu isə onlara göstərilən qayğının bir nümunəsidir. Şəhid ailələrinə və müharibə əlillərinə, milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi olaraq artırılmış, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin ödənilməsi təmin olunmuşdur. Bununla da onların sosial müdafiəsi ildən-ilə yaxşılaşmaqdadır. Dövlət başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən də böyük rəğbət və məmnunluqla qarşılanır.

Bu günlərdə Prezident İlham Əliyevin müharibə əlillərinə xüsusi qayğısını əks etdirən növbəti sosial dəstək proqramına start verildi. Dövlət başçısının fərmanı ilə Birinci Qarabağ müharibəsində iştirak etmiş və sağlamlığını itirmiş, ümumilikdə 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara və daxili işlər orqanları əməkdaşlarına, onlardan vəfat edənlərin vərəsələrinə birdəfəlik ödəmələrin verilməsinə başlandı. Bu qərar həm də onu göstərir ki, istər Birinci Qarabağ müharibəsi, istərsə də 44 günlük Vətən müharibəsində iştirak edən hər bir Azərbaycan vətəndaşı Prezident üçün dəyərlidir, onların Vətən üçün etdikləri fədakarlıqlar unudulmur.

Həmin kateqoriyalardan olanlara, vəfat edənlərin vərəsələrinə birdəfəlik ödəmələr I dərəcə əlilliyə görə - 8 800 manat, II dərəcə əlilliyə görə - 6 600 manat, III dərəcə əlilliyə görə - 4 400 manat təşkil edir. Həmin qərar müharibə əlili olan vətəndaşlarımıza, onların ailələrinə böyük dəstəkdir. Artıq bu barədə, yəni ödəməni hansı bankdan alacağına dair həmin şəxslərə SMS-lər də göndərilib.

Bunun özü görülən işlərin şəffaflığından xəbər verir. Yəni ödəmələrin bank kartları vasitəsilə verilməsi innovativ yeniliklərdən xəbər verir. Bununla da həm vətəndaşların get-gələ salınması, həm də digər neqativ halların qarşısı alınır.

Bir faktı da qeyd edək ki, həmin dövrədək hərbi xidmətdə olanların xəsarət alması barədə məlumatlar aidiyyəti qurumlar tərəfindən müvafiq elektron sistemə daxil edilmiş, o cümlədən sığorta ödənişi alması üçün məhkəmə qətnaməsi olan 11 minədək şəxsə e-sistem üzərindən proaktiv qaydada (heç bir quruma müraciət etmədən) ödəmə təyin olunaraq onların bank hesablarına köçürülmüşdür. Eyni zamanda birdəfəlik ödəmə təyin olunmuş şəxslər bu barədə məlumatı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial.gov.az saytındakı "Müharibə əlillərinə birdəfəlik ödəmə" pəncərəsinə daxil olaraq əldə edə bilərlər.

Birdəfəlik ödəmə Azərbaycan Beynəlxalq Bankından (ABB) sosial ödəniş alan şəxslərin mövcud kartlarına ödənilir. ABB-də kartı olmayan, birdəfəlik ödəmə təyin olunmuş şəxslər yeni kartlarını ABB-nin istənilən filialından şəxsiyyət vəsiqəsi ilə əldə edə bilərlər.

E-sistemlərdə, habelə müvafiq arxivlərdə aldığı xəsarətlə bağlı məlumat olmadığı halda elektron qaydada ödəmə təyin edilməyən şəxslər isə xəsarətlə bağlı şəhadətnamənin (və ya qərar, arayış) elektron sistemə daxil edilməsi üçün xidmət keçdikləri qurumun hərbi-həkim komissiyasına (həkim-uçuş komissiyasına) müraciət etməlidirlər.

Qeyd olunan sənəd aidiyyəti qurum tərəfindən e-sistemə daxil edildikdən sonra müvafiq sənədlərlə DOST mərkəzlərinə, vahid əlaqələndirmə mərkəzlərinə və ya DSMF-nin yerli bölmələrinə müraciət etməlidirlər. Birdəfəlik ödəmənin verilməsi üçün ərizə, şəxsiyyət vəsiqəsi, əlilliyin 1997-ci il avqustun 2-dək olan xidmət dövrü ilə bağlı təyin edilməsinə dair tibbi-sosial ekspertiza komissiyasının qərarı (tibbi-sosial ekspertiza komissiyasının müayinə aktından çıxarış və s.) təqdim olunmalıdır.

Birdəfəlik ödəmə almaq hüququ olan şəxs vəfat edibsə və adı sosial.gov.az saytında proaktiv ödəmə almaq hüququ olan şəxs kimi çıxırsa, həmin şəxsin vərəsəsi (vərəsələri) notariat orqanına müraciət edib vərəsəlik şəhadətnaməsini almalıdır. Bu barədə notariat orqanı tərəfindən nazirliyin e-sisteminə məlumat daxil olduqdan sonra vərəsəyə proaktiv ödəniş həyata keçiriləcək. Adı sosial.gov.az saytında proaktiv ödəmə almaq hüququ olan şəxs kimi çıxmadıqda isə vərəsə (vərəsələr) xəsarətlə bağlı şəhadətnamənin (və ya qərar, arayış) elektron sistemə daxil edilməsi üçün xidmət keçdikləri qurumun hərbi-həkim komissiyasına (həkim-uçuş komissiyasına) müraciət etməlidir. Sənəd daxil edildikdən sonra əgər vəfat etmiş şəxsin əlilliyinə dair e-sistemdə məlumat varsa, vərəsəlik şəhadətnaməsi əsasında vərəsəyə dərhal proaktiv təyinat həyata keçiriləcək, ona bu barədə məlumat veriləcək.

Əlilliyə dair e-sistemdə məlumat olmadıqda isə aşağıdakı sənədlər DOST mərkəzlərinə, vahid əlaqələndirmə mərkəzlərinə və ya DSMF-nin yerli bölmələrinə təqdim edilməlidir: birdəfəlik ödəmənin verilməsi üçün ərizə, birdəfəlik ödəmə almaq hüququ olmuş hərbi qulluqçunun və ya daxili işlər orqanı əməkdaşının ölüm haqqında şəhadətnaməsi, vərəsəlik hüququ haqqında şəhadətnamə, vərəsənin (vərəsələrin) şəxsiyyət vəsiqəsi, vəfat etmiş şəxsə vaxtilə təyin edilmiş əlilliyin 1997-ci il avqustun 2-dək olan hərbi xidmət dövrü ilə əlaqədar olmasına dair tibbi-sosial ekspertiza komissiyasının qərarı (tibbi-sosial ekspertiza komissiyasının müayinə aktından çıxarış və s.).

Bu mövzuda sualları yaranan şəxslər 142 - Çağrı mərkəzinə, nazirliyin, DOST Agentliyi və DSMF-nin rəsmi saytına, sosial şəbəkə hesablarındakı mesaj bölməsinə, həmçinin info@sosial.gov.az e-ünvanına və ya poçt vasitəsilə müraciət edə bilərlər.

Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birini ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin və bu döyüşlərdə sağlamlıqlarını itirmələri nəticəsində əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması və hər cür qayğı ilə əhatələnməsi təşkil edir. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması, onların sosial rifahının yüksəldilməsi, təqaüdlərinin artırılması daim diqqət mərkəzində saxlanılır.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*

# Baş verən insidentin bütün məsuliyyəti Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür

## Dərs almasalar, cavab daha sərt olacaq

Ermənilər yenə yollarını azdılar. Bir sözlə, cızıqlarından çıxdılar. Deyəsən, başları yenə "dəmir yumruq" istəyir. Əslinə qalsa, ermənilərin heç vaxt yolu olmayıb. Həmişə ipləri başqalarının əlində olub. Hara çəkiblərsə, ora da gediblər. Müstəqilliyimizi, inkişafımızı gözü götürməyənlər illərdir ki, erməniləri qara ilan kimi yolumuzun üstünə atırlar. Müdriklərin belə bir deyimi var: "Ya bir yol tap, ya bir yol aç, ya da yoldan çəkil". Bu binəvalar nə yol tapa bilirlər, nə yol aça... Nə də yolumuzdan çəkilirlər.



İllərdir ki, Azərbaycan Prezidenti, Müzzəffər Ali Baş Komandan İlham Əliyev dəfələrlə onlara izah edərək anlatmağa çalışıb ki, getdiyiniz bu yol sizi dalana dirəyib. Daha gedə biləcəyiniz bir yer qalmayıb, ya ağıllı olun, ya da ağıllı olacaqsınız. Anlamadılar. Anlamayanla bəzən öz başa düşdüyü dildə danışmaq lazım gəlir. "Dəmir yumruğ"un, gücün, silahın dili ilə. 2020-ci ilin sentyabrında zəfər yürüşünə çıxan Azərbaycan Ordusu ermənini haqq etdiyi yerə kimi qovdu. Qaçdılar! Aman dilədilər! Yalvardılar!

Yıxdığını kəsməmək, aman diləyənə rəhm etmək türkün böyüklüyündəndir. Böyüklük etdik, "ağıllı ol" dedik. 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanat imzalandı. İmzalanan Bəyanatla Ermənistan hökuməti Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrini çıxaracaqlarına söz verdilər. Üzərilərinə öhdəlik götürdülər. Amma görünən budur ki, yenə ermənilik edirlər. Nə imzalarına hörmət qoyur, nə də sözlərinin üstündə dururlar. Məqam düşən kimi də erməni xislətlərini işə salırlar. Yeni "planlar" qurub xam xəyala düşürlər. Ən pisi də budur ki, bu özbaşınalıqlar Qarabağda sülhün təminatını öz üzərinə götürmüş üçtərəfli Bəyanata imza atanlardan biri, Rusiya Federasiyasının sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərdə baş verir. Görünən odur ki, ermənilər 44 günlük zəfər müharibəsi zamanı başına gələnlərdən ya yaxşı dərs almayıblar, ya da ağıllarını tamailə itiriblər.

Üçtərəfli Bəyanatın müddəalarını kobud surətdə pozub öz qanunsuz silahlı dəstələrini Azərbaycan ərazisindən çıxarmayan erməni tərəfi avqustun 3-də yenidən iştahlanaraq Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirməyə və orada yeni döyüş mövqeləri qurmağa cəhd göstəriblər. Nəticədə Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Kazımov Anar Rüstəm oğlu şəhid olub. Yaranmış insidentlə bağlı dərhal Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat verib. Bəyanatda xüsusi olaraq vurğulanıb ki, Azərbaycan tərəfi Ermənistanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyini və qanunsuz erməni silahlı dəstələrinin hələ də Azərbaycan ərazisindən çıxarılmadığını dəfələrlə bəyan edib. Avqustun 3-də baş vermiş qanlı insident bir daha Ermənistanın üçtərəfli razılaşmanı kobud şəkildə pozduğunu, eyni zamanda iki dövlət arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərə xələl gətirdiyini nümayiş etdirir. Bu, həmçinin Ermənistanın beynəlxalq vasitəçilərin səylərinə hörmətsizliyinin göstəricisidir.

Azərbaycan ərazisində baş verən insidentin bütün məsuliyyəti qonşu dövlətin torpaqlarında qanunsuz silahlı birləşmələrini hələ də çıxarmayan Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

Təbii ki, ermənilərin torpaqlarımızda törətdikləri özbaşınalığa qarşı cavabı çox gözləmədik. Müzəffər Azərbaycan Ordusu dərhal keçirdiyi "Qisas" əməliyyatı ilə düşmənə sarsıdıcı zərbələr endirdi. Düşmən bir daha lazım olan dərsi aldı. Əməliyyat nəticəsində Qırxqız yüksəkliyi, Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətimizə götürüldü.

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin məlumatında bildirilir: "Hazırda bölmələrimiz tərəfindən əlverişli hədlərdə yeni mövqelərin qurulması və təminat yollarının çəkilməsi üzrə mühəndis işləri görülür". Eyni zamanda Müdafiə Nazirliyi onu da qeyd edir ki, əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdılıb, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirilib. Nəticədə qanunsuz erməni silahlılarının canlı qüvvəsi məhv edilib və yaralanıb, həmçinin bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatları məhv edilib. Azərbaycanın suveren ərazilərində törədiləcək istənilən terror və təxribata qarşı cavab tədbirləri daha ağır və sarsıdıcı olacaq".

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan çıxışlarında dəfələrlə qeyd edib ki, Ermənistanda revanşist qüvvələr baş qaldırıb, xam xəyallara düşsələr, Azərbaycan tərəfinin mövqeyi daha sərt olacaq. Gərək ki, Azərbaycan tərəfinin sərt üzünü görən ermənilər indiyə kimi başlarına gələnlərdən nəticə çıxaraydılar. Əgər Azərbaycan ərazisində qalıb yaşamaq istəyirlərsə, bunun yeganə yolu qanunlarımıza tabe olmaqdan keçir. Əks halda Azərbaycan Ordusu heç kimin "ərköyün uşağının" nazını çəkmək haqqında üzərinə öhdəlik götürməyib.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Naxçıvanda şəhid ehtiramla qarşılandı



Vətən torpaqlarının azadlığı uğrunda canlarından keçərək qəhrəmanlıq tariximizin şanlı səhifələrini yazan şəhidlərimizin xatirəsi daim yaşayacaqdır. Onların döyüş yolu, göstərdikləri şücaət və vətənpərvərlik nümunəsi gənc nəsil üçün örnəkdir.

Ümummilli Liderimiz Heydər Əliyevin də dediyi kimi: "Vətənin, ölkəmizin müdafiəsi uğrunda şəhid olmuş insanların adı daim qəlbimizdədir, onların xatirəsi bizim üçün əzizdir, onlar bizim üçün unudulmazdır". Avqustun 5-də Kəlbəcər rayonunda yeni nəzarətə götürülmüş ərazidə ermənilər tərəfindən basdırılmış minanın partlaması nəticəsində hərbi qulluqçumuz, leytenant Babək Əliyev şəhidlik zirvəsinə yüksəlib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, avqustun 6-da Naxçıvan Beynəlxalq Hava Limanında şəhidimizin qarşılanma mərasimi olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, dövlət və hökumət nümayəndələri, şəhidin ailə üzvləri tədbirdə iştirak ediblər.

Şəhidin üçrəngli bayrağımıza bükülmüş cənazəsi hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirildi. Ali Məclisin Sədri və tədbir iştirakçıları şəhidin xatirəsinə ehtiramlarını bildirdilər.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu, şəhid cənazəsinin önündən keçildi.

Şəhidin cənazəsi doğulduğu Culfa rayonunun Ləkətağ kəndinə yola salındı.

Ali Məclisin Sədri şəhidin atası Əsgər Əliyev ilə görüşərək başsağlığı verdi.

# Şəhid leytenant Babək Əliyevlə vida mərasimi keçirilib





Avqustun 5-i Kəlbəcər rayonunda ordumuz tərəfindən yeni nəzarətə götürülmüş ərazidə ermənilər tərəfindən basdırılmış minanın partlaması nəticəsində həlak olan Azərbaycan Ordusunun hərbi qulluqçusu Babək Əliyev doğulduğu Culfa rayonunun Ləkətağ kəndində son mənzilə yola salınıb.

AZƏRTAC xəbər verir ki, şəhidimizin nəşi Naxçıvan Beynəlxalq Hava Limanından doğulduğu Culfa rayonunun Ləkətağ kəndinə gətirilib. Şəhidimizin cənazəsi izdihamla qarşılanıb, qəhrəman Vətən oğlu "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı ilə Ləkətağ kənd qəbiristanlığına son mənzilə yola salınıb.

Şəhidimizin dəfnində Əlahiddə Ümumqoşun Ordunun, muxtar respublikanın Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Culfa Rayon İcra Hakimiyyətinin əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Vida mərasimində cənazə namazı qılınıb, şəhidlərimizin ruhuna dualar oxunub.

Çıxış edənlər qeyd ediblər ki, şəhid leytenant Babək Əliyev 44 günlük Vətən müharibəsində Kəlbəcərdə, Cəbrayılda, Füzulidə qəhrəmanlıq və şücaətlər göstərib. Həmçinin son günlərdə Azərbaycan Ordusunun keçirdiyi "Qisas" əməliyyatında və digər döyüş əməliyyatlarında fəal iştirak edib. Çıxış edənlər şəhidimizin ailəsinə başsağlığı veriblər.

Sonra üçrəngli Azərbaycan bayrağı şəhidimizin atasına təqdim edilib, yaylım atəşi açılıb.

# Naxçıvanda şəhid ailəsi və qazilərə mənzillərin, avtomobillərin və dövlət təltiflərinin təqdimatı olub

Avqustun 6-da şəhid ailəsinə və qazilərə yeni mənzillərin və avtomobillərin, qüsursuz xidmət etmiş hərbi qulluqçuya yeni mənzilin, Azərbaycan Respublikasının orden, medal və fəxri adlarının, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gənc istedadlara xüsusi aylıq təqaüdünün təqdimat mərasimi keçirilib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qəhrəman şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirib, şəhid ailəsinə və qazilərə, qüsursuz xidmət etmiş hərbi qulluqçuya yeni mənzillərdə rahat həyat arzulayıb, qazilərimizi avtomobillə təmin olunmaları, təltif olunanları dövlətimizin ali mükafatlarına, gəncləri isə xüsusi aylıq təqaüdə layiq görülmələri münasibətilə təbrik edib.

Ali Məclisin Sədri şəhid ailəsi və qazilərə mənzillərin orderlərini və avtomobillərin açarlarını təqdim edib.

Mənzillə təmin olunan şəhid İbrahim Vəlizadənin həyat yoldaşı Billur Vəliyeva deyib: "Mən şəhid yoldaşı olmaqdan fəxr edir, bu adı daşımaqdan qürur duyuram. Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq edirəm".

Mənzillə təmin olunan qazi C.Bayramov deyib: "Mən 2004-cü ildə Naxçıvanda Heydər Əliyev adına Hərbi Liseydə təhsil aldığım müddətdə hər zaman Ali Məclis Sədrinin diqqət və qayğısını üzərimdə hiss etmişəm. Liseyi bitirdikdən sonra xidməti davam etdirdim. Bu gün torpaqlarımız düşmən tapdağından azad olunub. Bundan sonra da qazi kimi hər zaman dövlətimizin yanındayıq. Bizim bu gün mənzillə təmin olunmağımız ailəmizə böyük sevinc bəxş etdi".

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci il 28 dekabr tarixli Fərmanına əsasən Azərbaycan Ordusunda 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara mənzillər təqdim olunur. Fərmana uyğun olaraq 20 ildən artıq qüsursuz xidmət edən ehtiyatda olan polkovnik-leytenant Fariz Həsənova yeni mənzilin orderi təqdim edilib.

Sonra Azərbaycan Respublikasının orden, medal və fəxri adları təqdim olunub.

Azərbaycan Respublikasının "Əməkdar tibb işçisi" fəxri adı ilə təltif olunan şəhid anası Yəmən Abbasova əməyinə verilən yüksək qiymətə görə minnətdarlıq edib.

Təltif olunanlardan Xəlil Fərəcov, Yusif Seyidov, Anar Əhmədov, Sahəddin Quliyev, Elman Novruzov, Telman Rzayev, Vilayət Sadıqov, Ramin Hacıyev, Elman Əkbərov, İsmayıl Gülməmmədov və digərləri əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıq edib, bundan sonra da ölkəmizin inkişafı və tərəqqisi yolunda səylə çalışacaqlarına söz veriblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2022-ci il 18 iyul tarixli sərəncamı ilə kikboksinq idmanı üzrə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Röya Abdullayevanın və STEAM təhsili üzrə Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi Kamal Qafarovun adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılıb və onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüblər.

Ali Məclisin Sədri təqaüd kartlarını gənc istedadlara təqdim edib, onlarla xatirə şəkli çəkdirib.

Təqaüdçü gənc Kamal Qafarov deyib: "Muxtar respublikada STEAM təhsil metodu tətbiq olunur. Bununla da mənim kimi yüzlərlə şagird öz ideyalarını, intellektual səviyyələrini nümayiş etdirə bilirlər. Mən də 8 nömrəli tam orta məktəbdə yaradılan şəraitdən istifadə edərək STEAM təhsil sahəsində muxtar respublikamızı bir çox tədbirlərdə təmsil etmişəm. Yaradılan müasir təhsil şəraitinə və verilən yüksək qiymətə görə Ali Məclisin Sədrinə minnətdarlıq edirəm. Söz verirəm ki, bundan sonrakı təhsil həyatımda daha da səylə çalışacaq və göstərilən etimadı doğruldacağam".

Şəhid ailəsinə və qazilərə, qüsursuz xidmət etmiş hərbi qulluqçuya verilən 2, 3 və 4 otaqlı mənzillər Naxçıvan, Babək və Culfa şəhərlərindəki yeni yaşayış binalarında yerləşir.

# Məqsəd yüksəkixtisaslı mütəxəssislər hazırlamaqdır

## Son üç tədris ilində Mingəçevir Dövlət Universiteti tələbələrinin müvəffəqiyyət göstəricisi 95 faizdən çox olmuşdur

Ali təhsilə dövlətin yüksək diqqət və qayğısı, yerli və xarici tərəfdaşların dəstəyi, idarəetmədə səmərəliliyin, çevikliyin və şəffaflığın artırılması sayəsində Mingəçevir Dövlət Universitetinin (MDU) potensialının inkişafı və modernləşməsi istiqamətində əhəmiyyətli nəticələr əldə olunmuşdur.

Hər şeydən əvvəl, tədrisin hibrid formatda səmərəli təşkilinə nail olunmuş, elmi fəaliyyətdə müsbət kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş, sosial sahədə fəaliyyətlər genişlənmiş, idarəetmənin strukturu müasir tələblərə uyğun və tələbəyönümlülük kontekstində daha da təkmilləşdirilmişdir. Bununla yanaşı, yerli və beynəlxalq tərəfdaşlıqlar, sənaye ilə işbirliyi gücləndirilmiş, səmərəli ali təhsil mühitinin formalaşdırılması, təhsilalanların və təhsilverənlərin hərtərəfli inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Hazırda dövlətin hərtərəfli dəstəyi ilə universitetin müasir tələblərə cavab verən yeni kampusunun yaradılması istiqamətində də müvafiq işlər davam etdirilir.

MDU-da struktur təkmilləşdirilməsi istiqamətində görülən işlər çərçivəsində İnformasiya Texnologiyaları fakültəsinin yaradılması və Mühəndislik fakültəsinin yenidən qurulması ilə bağlı müvafiq tədbirlər həyata keçirilmiş, Pedaqoji fakültə Təhsil fakültəsi adlandırılmış, Magistratura və Doktorantura Təhsil Mərkəzi, Dayanıqlı İnkişaf və Regional İnnovasiyalar Tədqiqat Mərkəzi təsis edilmişdir.

Hazırda universitetdə iqtisadiyyat, mühəndislik və pedaqoji profilləri əhatə edən 24 ixtisas (bakalavriat) və 14 ixtisaslaşma (magistratura) üzrə kadr hazırlığı həyata keçirilir. Üç fakültənin və on kafedranın mövcud olduğu universitetdə 2021-2022-ci tədris ilində ümumilikdə 3000-ə yaxın tələbə və magistrant təhsil almışdır. Bütövlükdə 300-dən çox əməkdaşı olan MDU-da 195 professor-müəllim heyəti çalışır ki, onlardan 5 nəfərin elmlər doktoru, 57 nəfərin isə fəlsəfə doktoru elmi dərəcəsi, 3 nəfərin professor və 43 nəfərin isə dosent elmi adı var. Bundan əlavə, təhsil ocağında Türkiyənin Qazi Universitetindən 2 professor fəaliyyət göstərmişdir.

Ötən tədris ilinin payız və yaz imtahan sessiyalarının hər birində 3000-dən çox tələbə və magistrant 900-dən çox imtahanda iştirak etmişdir.

Ölkənin və regionun inkişafına töhfə verən, səmərəli və nəticəyönümlü elmi fəaliyyətin həyata keçirilməsini diqqət mərkəzində saxlayan MDU-da son dövrdə elmi potensialın inkişaf etdirilməsi sahəsində görülən işlər nəticəsində müsbət keyfiyyət dəyişiklikləri müşahidə edilmiş və yeni meyillər meydana çıxmışdır. MDU-da akademik heyət üzvlərinin tədqiqat bacarıqlarının artırılmasına və elmi fəaliyyətlərinin təşviq edilməsinə xüsusi diqqətin göstərilməsi, elmi nəşrlərdə dərc edilən əsərlərə görə əməkdaşların mükafatlandırılması universitetdə elmi fəaliyyətin genişlənməsinə və nüfuzlu beynəlxalq elmi jurnallarda dərc edilən məqalələrin sayının artmasına səbəb olmuşdur. 2019-cu ildən 2022-ci ilin yarısınadək MDU əməkdaşlarının "Web of Science" bazasında indekslənən elmi nəşrlərdə dərc olunan məqalələrinin sayı (20 ədəd) 1991-2018-ci illər üzrə müvafiq göstəricidən (8 ədəd) 2,5 dəfə çox olmuşdur. Ümumilikdə bu günə qədər sözügedən bazaya daxil olan jurnallarda universitetin akademik heyət üzvlərinin 28 məqaləsi dərc olunmuşdur.

Universitetin tarixində ilk elmi jurnal hesab edilən "Dayanıqlı inkişaf" multidissiplinar elmi jurnalının birinci və ikinci buraxılışları çap olunmuş və elektron variantda təhsil ocağının rəsmi saytında yerləşdirilmişdir. Jurnal Beynəlxalq Standart Seriya Nömrəsi (ISSN) və E-ISSN kodu almış, "Academic Resource Index ResearchBib" beynəlxalq xülasələndirmə və indeksləşdirmə bazasına, eləcə də Ali Attestasiya Komissiyasının iqtisad elmləri üzrə Azərbaycan Respublikasında məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

MDU-da yerli və xarici tərəfdaş ali təhsil müəssisələrinin doktoranturasında universitetin gənc əməkdaşları və məzunlarının təhsil almasına xüsusi diqqət yetirilmişdir. Hazırda universitetin 31 əməkdaşı fəlsəfə doktoru proqramı, 6 əməkdaşı isə elmlər doktoru proqramı üzrə ölkəmizin müxtəlif ali təhsil müəssisələrində dissertant və doktorantdırlar. 2021-2022-ci tədris ilində universitetin 5 əməkdaşı fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün dissertasiya işlərini uğurla müdafiə etmiş, 8 nəfər doktorant və dissertant dissertasiya işlərini başa vurmuş və müdafiə ərəfəsindədir. Bundan əlavə, MDU-nun 1 əməkdaşı və 1 məzunu Türkiyənin Qazi Universitetində doktorantura təhsili alırlar. Universitetin digər bir əməkdaşı isə doktorantura təhsilini Erasmus+ proqramı çərçivəsində Sloveniya Respublikasının Nova Gorica Universitetində davam etdirmişdir.

Regional innovasiya ekosisteminin başlıca aktorlarından birinə çevrilməyi hədəfləyən MDU-da kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, tədrisin məzmununun təkmilləşdirilməsi və tədqiqatların nəticəyönümlüyünün artırılması məqsədilə müxtəlif formatlı təhsil-sənaye əməkdaşlığının inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilir. Hesabat dövründə ali məktəbin SOCAR və Azərbaycan Sahibkarlar Konfederasiyası ilə əməkdaşlığının əsası qoyulmuşdur. MDU Mingəçevir Peşə Məktəbi və "Azmade Group" MMC şirkəti arasında "universitet-peşə məktəbi-sənaye" formatında üçtərəfli əməkdaşlıq, "Azərbaycan İES" MMC, "Atəşgah" Sığorta Şirkəti, "Kapital Bank" ASC və Mingəçevir Sənaye Parkı ilə işbirliyi çərçivəsində təlim-təcrübə proqramı, elmi konfrans, nəzəri-praktiki seminar, "dəyirmi masa", infotur və digər müxtəlif formatlı tədbirlər keçirilmişdir.

Universitetdə tələbəyönümlü təhsil mühitinin yaradılmasına, tələbə gənclərin hərtərəfli inkişafına, onların universitet idarəçiliyində fəal təmsil olunmasına, çoxşaxəli könüllülük fəaliyyətinə cəlb edilməsinə və tələbə təşkilatlarının fəaliyyətinin gücləndirilməsinə xüsusi diqqət yetirilir. Qardaş Türkiyənin ən böyük aerokosmik və texnologiya festivalı olan "TEKNOFEST 2022"nin final mərhələsində MDU-nun 13 tələbə və mentorun daxil olduğu 3 komanda ilə fəal iştirak etmişdir.

Gənclərin xalqına, vətəninə və dövlətinə bağlı layiqli vətəndaş kimi yetişdirilməsini əsas vəzifələrindən biri kimi diqqət mərkəzində saxlayan ali məktəbdə təhsilin məzmununda vətənpərvərlik tərbiyəsinin öneminin daha da yüksəldilməsi istiqamətində mühüm addımlar atılmışdır. Universitetdə Qarabağ Zəfərinə və qəhrəmanlara həsr edilən, tariximizin faciəvi və şanlı səhifələrinin, milli-mənəvi dəyərlərin və adət-ənənələrin öyrənilməsinə və təbliğinə hədəflənən müxtəlif formatlı çoxsaylı tədbirlər keçirilmişdir.

Yeni dövrün universitetinə çevrilməyi strateji hədəflərindən biri olaraq müəyyənləşdirən Mingəçevir Dövlət Universitetində mövcud potensialın gücləndirilməsi, idarəetmə, tədris və tədqiqat fəaliyyətlərinin müasir tələblərə uyğun təkmilləşdirilməsi məqsədilə beynəlxalq əlaqələr inkişaf etdirilmiş, müvafiq dövlət qurumları, paytaxtın qabaqcıl universitetləri və regionda yerləşən təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi önəm verilmişdir.

Paytaxtın qabaqcıl ali təhsil müəssisələrindən olan Bakı Dövlət Universiteti, ADA Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə əlaqələrin inkişafı istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Beləliklə, dövlətin və tərəfdaşların dəstəyi ilə MDU-da baş verən keyfiyyət dəyişiklikləri yeni inkişaf mərhələsində olan universitetin strateji hədəflərinə yaxınlaşmasına böyük zəmin yaratmışdır.

***Şahin BAYRAMOV,***
***Mingəçevir Dövlət Universitetinin rektoru***

# COVID-19 sürətlə yayılmaqdadır

## Simptomlardakı dəyişiklik virusun mutasiyasının nəticəsidir

İki ildən artıqdır həyatımıza daxil olan COVID-19-la mübarizə səngimir. Bu bəladan bütün dövlətlər həm maddi, həm də mənəvi ziyan çəkməkdə davam edirlər. Dünyanın böyük dövlətləri belə bu virusun qarşısında gücsüzdürlər.

İndi koronavirusa yoluxmuş şəxslərdə ən çox rast gəlinən simptom boğaz ağrısıdır. Digər xarakterik əlamətlər isə baş ağrısı, burun tıxanıqlığı və öskürəkdir. Əvvəllər bu xəstələrdə müşahidə edilən yüksək hərarət, iybilmə və dadbilmənin itməsi indi nadir hallarda ortaya çıxır. Xəstəliyin əsas əlamətləri səsin batması, asqırma, yorğunluq, əzələ ağrıları və başgicəllənmədir. Mütəxəssislər bildirirlər ki, pandemiyanın ortaya çıxmasından bu günədək COVID-19 simptomlarında daim dəyişiklik baş verib. Buna səbəb virusun mutasiyasıdır.

Son həftələr dünyada olduğu kimi Azərbaycanda da yoluxma halında ciddi artım müşahidə olunur. Virus hələ də yayılmağa davam edir. Ölkəmizdə yoluxanların sayı artıq 500-ü ötüb.

Qısa müddətdə dünyanı bürüyən, milyonlarla insanın yoluxmasına, hətta ölümünə səbəb olan COVID-19 pandemiyası ilə mübarizədə ən güclü silah yenə də peyvənd hesab edilir. Öz həyatını, yaxınlarını təhlükədən xilas etmək üçün hər bir vətəndaş vaksinasiya olunmalıdır. Vaksinasiyanın başladığı ilk günlərdə tərəddüd edənlər sonralar artıq bunun nə qədər vacib olduğunu anlamağa başlayıblar.

Vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanılmış və faydası göz önündə olmuşdur. Azərbaycan peyvəndləmə səviyyəsi baxımından MDB ölkələri arasında lider mövqedədir. Ümumdünya Səhiyyə Təşkilatının COVID-19-la bağlı milli və beynəlxalq səviyyədə göstərdiyi ciddi səylərə görə, Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirməsi də təbii ki, ölkəmizdə bu sahədə görülən tədbirlərin uğurlu nəticəsidir. Azərbaycanda bu günə qədər vurulan vaksin dozalarının ümumi sayı 14 milyona yaxındır.

Son günlərdə yoluxanların sayında ciddi artım olsa da, ölkəmizdə vəziyyət nəzarət altındadır. Lakin buna baxmayaraq, hər birimiz üzərimizə düşən məsuliyyəti dərk etməli, ehtiyat tədbirlərini əldən verməməli və səhhətimizə qeyri-ciddi yanaşmamalıyıq. İzdihamlı yerlərdən, havalandırılması zəif olan qapalı məkanlardan uzaq durmalı və sosial məsafəni qorumalıyıq. Bu, mümkün olmadığı təqdirdə mütləq tibbi maskadan istifadə etməliyik.

Gün ərzində gigiyenik qaydalara riayət etmək, əlləri tez-tez sabunla yumaq və antiseptiklə dezinfeksiya etmək mütləqdir. Digər vacib amil isə immunitetin zəifləməsinin qarşısının alınmasıdır. Bunun üçün vitamin qəbuluna, gündəlik rasiona mövsümə uyğun meyvə və tərəvəzin əlavə edilməsinə xüsusi diqqət yetirilməlidir. Bu bəşəri bəlanın öhdəsindən yalnız birlikdə gələ bilərik.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***






# REGİONLAR



## Birinci Qarabağ müharibəsi şəhidinin büstü qoyulub

Şəhid Sərvər Abdulkərimovun adını daşıyan Qusar rayonu Balaqusar kənd tam orta məktəbinin qarşısında qəhrəman döyüşçünün büstünün açılışı olub.



Rayon icra hakimiyyəti, hüquq-mühafizə orqanlarının nümayəndələri, şəhidin ailə üzvləri, qazilər və məktəblilərin iştirak etdikləri mərasimdə büstün önünə gül dəstələri düzülüb, şəhidlərimiz birdəqiqəlik sükutla yad olunub.

Çıxış edənlər şəhidin həyat və döyüş yolundan söz açıblar. Bildirilib ki, Sərvər Abdulkərimov Ulu Öndər Heydər Əliyevin 1993-cü il noyabrın 7-də xalqa müraciətindən sonra yaradılan Quba-Qusar batalyonuna könüllü qoşulub. O, 1993-cü il dekabrın 27-də Füzuli rayonu ərazisində Şişqaya uğrunda gedən qanlı döyüşlərdə qəhrəmanlıqla həlak olub.

Şəhidin həyat yoldaşı Şahzadə Abdulkərimova və qızı Ruqiyyə Hüseynova ailələri adından onlara göstərilən diqqətə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, şəhidin nəvələri Sərvər və İlknur hazırda babalarının adını daşıyan məktəbdə təhsil alırlar.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Son 3 ayda ƏƏSMN-nin rəhbər şəxsləri regionlarda 2 minə yaxın vətəndaş qəbul ediblər

### Onlardan 571 nəfəri şəhid ailəsi üzvləri və qazilər olub

Bu ilin may-iyul aylarında əmək və əhalinin sosial müdafiəsi naziri və müavinləri, nazirliyin Aparat rəhbəri, müavini və tabelikdəki qurumların rəhbərləri tərəfindən ölkəmizin regionlarında keçirilən vətəndaş qəbulları zamanı 1961 vətəndaşın müraciəti dinlənilib.

Onlardan 571 nəfərini şəhid ailəsi üzvləri, müharibə əlilləri və iştirakçıları təşkil edib.

Vətəndaşların müraciətləri sosial təminat, əlillik və reabilitasiya, mənzillə təminat, aktiv məşğulluq proqramlarına cəlb edilmə və s. məsələlərlə bağlı olub. Müraciətlər yerindəcə araşdırılaraq aidiyyəti tədbirlər görülüb, həmçinin müvafiq izahatlar verilib.

## Qarabağın və Şərqi Zəngəzurun çayları əkinçinin köməyinə gəlir

### Üstəlik, Arana da dağlardan su çəkiləcək



**Ərzaq təhlükəsizliyinin daha böyük önəm daşıdığı, o cümlədən kənd təsərrüfatı məhsullarına tələbatın kəskin şəkildə artdığı indiki zamanda suvarma suyu əvvəlkindən də çox diqqət tələb edir. Bu baxımdan işğaldan azad edilmiş ərazilərimizin çayları, sözün əsl mənasında, əkinçinin köməyinə gələcək. Dövlət bu çayların sularının tarlalara, bağ-bostana yönəldilməsi üçün genişmiqyaslı tədbirlər həyata keçirir.**

Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə bir daha vurğulamışdır: "Suvarma ilə bağlı layihələri xüsusilə qeyd etmək istəyirəm. Azad edilmiş ərazilərdə həm böyük su anbarları və su kanallarının tikintisi, həm içməli su təchizatı nəzərdə tutulur - biz Şərqi Zəngəzuru azad etməklə böyük su mənbələrinə yenə də qayıtmışıq, onlar da işğal altında idi. Eyni zamanda suvarma məsələləri böyük dərəcədə Kəlbəcər və Laçın su mənbələri hesabına təmin ediləcək".

30 illik işğal dövründə düşmənin çaylarımıza qarşı ekoloji terror törədərək onların sularını olmazın dərəcədə çirkləndirdiyi indi bütün dünyaya məlumdur. Erməni vandalları eyni zamanda su ehtiyatlarından məqsədli şəkildə təzyiq vasitəsi kimi istifadə etmişlər. Kənd təsərrüfatı işlərinin qızğın çağında, suvarmaya ciddi ehtiyac olduğu zaman çayların qarşısını kəsmişlər. Daşqınlar baş verəndə, eləcə də əkinlərə su lazım olmayan vaxtlarda isə anbarların ağzını açaraq ciddi problemlər yaratmışlar. Su anbarlarının qəsdən dağıdılması düşmənin təkcə Qarabağ və Şərqi Zəngəzurun deyil, nəticə etibarilə ölkəmizin bütün aqrar sahəsinə ağır zərbə vurmuşdur.

Məsələn, Sərsəng və Suqovuşan su anbarları uzun müddət düşmənin əlində olduğuna görə 100 min hektar torpaq susuz qalmışdı və bir neçə rayonda su təminatını yaxşılaşdırmaq üçün yüzlərlə subartezian quyusu qazılmışdır. Ağdam, Tərtər, Bərdə, Yevlax, Goranboy və digər rayonlar Tərtərçayın suyundan məhrum edilmişdi. Eyni taleyi Köndələnçay və çayın üzərindəki su anbarları, digər su mənbələri də yaşamışdır.

Dövlət başçısı bu məsələyə həmçinin əvvəlki çıxışlarında dəfələrlə toxunmuşdur: "Görün, işğal altında qalan su anbarları nə qədər idi. Xudafərin - 1 milyard 600 milyon kubmetr su ehtiyatı olan ən böyük su anbarı, Qız qalası, Suqovuşan, Xaçın, Köndələnçay-1, Köndələnçay-2, Aşağı Köndələnçay, Ağdamkənd - bax bu su anbarları işğal altında idi. İndi biz onları bərpa edirik və bərpa edəcəyik. Konkret layihələrə gəldikdə, mən bu sahədə hansı işlər görüləcəyini də bildirməliyəm. Həkəriçay su anbarının tikintisi nəzərdə tutulur, yeni su anbarı olacaq. Suqovuşan su anbarının və kanalın təmiri. Kanalın uzunluğu 5,2 kilometrdir, təmirdən sonra Suqovuşandan daha böyük əraziyə suyun verilməsi mümkün olacaq. Xaçınçay su anbarının və 7 kilometr uzunluğunda kanalın təmiri... Ondan sonra Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay-2 su anbarlarının təmiri nəzərdə tutulur".

Eləcə də Tərtərçay sol sahil kanalının, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının su təsərrüfatı kompleksinin yenidən qurulması, o cümlədən su mənbələrinin müəyyən edilməsi görüləcək işlər sırasındadır. Bu il Bərgüşad su anbarının layihəsinin hazırlanması öz həllini tapmalıdır. Verilən yeni təkliflərə əsasən, Zəngilan, yaxud Qubadlı rayonlarının birində yeni su anbarının tikintisi nəzərdə tutulur. Bunlar imkan verəcək ki, yaxın zamanlarda 10 min hektar sahə suvarma ilə təmin edilsin. Görülən işlər sayəsində nə yaradılacaqsa, hamısı ölkənin ümumi su təsərrüfatı sisteminə inteqrasiya ediləcək. Bu məqsədlə kompleks tədbirlər nəzərdə tutulub və həyata keçirilir.

Prezident İlham Əliyev keçən il iyunun 14-də və bu il aprelin 21-də Füzuli rayonunda Köndələnçay su anbarlarının yerləşdiyi ərazilərə səfər etmiş, orada aparılacaq təmir-bərpa işləri ilə tanış olmuşdur. Xatırladaq ki, Köndələnçay üzərində üç su anbarı var. Onlardan biri -"Köndələnçay-1" 1951-ci ildə inşa edilib. Bu su anbarının tutumu 2,1 milyon kubmetr təşkil edir. "Köndələnçay-2" anbarının isə 3,9 milyon kubmetr su tutumu var. Çay üzərində yerləşən ən böyük anbar Aşağı Köndələnçay su anbarıdır və 9,5 milyon kubmetr su tutumuna malikdir. Mütəxəssislərin fikrincə, sözügedən bu anbarlara həmçinin Köndələnçaya paralel axan Quruçaydan iki hidroqovşaq vasitəsilə su axıtmaq mümkündür.

İşğaldan azad olunmuş ərazilərdə hazırda ümumilikdə 9 su anbarı tikilir və ya təmir olunur. Prezident artıq bu anbarların gələcək istismarı ilə bağlı müvafiq göstərişlər verib. Yeni kanalların çəkilməsi və köhnələrin bərpası üçün vəsait ayrılıb, geniş proqram icra edilməyə başlanıb.

Dövlət başçısı cari ilin birinci yarısının yekunları ilə bağlı müşavirədə içməli su probleminə də toxunmuş və həmin istiqamətdə Qarabağın və Şərqi Zəngəzurun su mənbələrinin töhfə verəcəyini qeyd etmişdir: "Bu yaxınlarda Kəlbəcər, Laçın rayonlarında olarkən mənə layihə təqdim edildi. Meliorasiya və Su Təsərrüfatı Səhmdar Cəmiyyəti tərəfindən içməli suyun Azərbaycanın Aran bölgəsinə qədər gətirib çatdırması layihəsi də var. Yəni bu, içməli su ilə bağlı olan problemləri böyük dərəcədə həll edəcək. Ona görə bu layihələrə xüsusilə baxmaq lazımdır."

İçməli suya və suvarmaya eyni zamanda xarici investisiyaların yönəldilməsi də məqsədəuyğun məsələdir. Bəzi xarici şirkətlər artıq Ələt Azad İqtisadi Zonasında fəaliyyət göstərmək üçün, o cümlədən dəniz suyunun duzsuzlaşdırılması layihəsi ilə bağlı müraciət etmişlər. Prezident bunun da çox böyük əhəmiyyəti olduğunu vurgulamışdır: "Bu, dünyanın bir çox ölkələrində artıq sınaqdan çıxmış layihələrdir və burada dövlət-özəl sektor tərəfdaşlığı da mümkündür. Əlbəttə, eyni zamanda dövlət xətti ilə, özəl investisiya xətti ilə ayrı-ayrılıqda layihələrin icrası nəzərdə tutulmalıdır".

Qeyd edək ki, Xəzər suyunun saflaşdırılması sahəsində özümüzün də müəyyən təcrübəmiz var. Hələ ötən illərdə bir sıra yerlərdə suyu saflaşdıran qurğular quraşdırılmışdı və fəaliyyət göstərirdi.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Şəhid uşaqları üçün yay düşərgəsinin birinci mərhələsi yekunlaşıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sosial sifarişi və dəstəyi ilə "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi tərəfindən şəhid uşaqları üçün təşkil edilən növbəti yay istirahət düşərgəsinin birinci mərhələsi başa çatıb.

70 nəfərdən ibarət ilk qrup 29 iyul - 3 avqust tarixlərində Qubada yerləşən istirahət mərkəzində dincəliblər.

Bu müddət ərzində şəhidlərimizin övladları rayonun tarixi və gəzməli yerlərinə ekskursiya ediblər. Həmçinin bir sıra əyləncəli interaktiv təlimlərdə ("Axtar-tap", "Bionika", "Ebru", "Mini Survivor" və s.) iştirak edərək öz bacarıqlarını inkişaf etdirmək imkanı qazanıblar.

Düşərgədə onlarla interaktiv oyunlarla yanaşı, su idmanı və istirahəti, eyni zamanda müxtəlif psixoloji seanslar təşkil edilib.

Düşərgənin son günündə şəhid övladları peşəkar təlimçilərin təşkil etdiyi əyləncəli idman oyunları və "Xəmsə" intellektual təlimində iştirak edərək sertifikatlar əldə ediblər.

Növbəti mərhələdə daha 70 nəfər yay düşərgəsinə yola salınacaq.

Layihə ümumilikdə ölkəmizin müxtəlif bölgələri üzrə 100-dək şəhid uşağını (valideynlərindən birinin müşayiət edəcəyi də nəzərə alınmaqla 140 nəfəri) əhatə edəcək.

## Cəlilabadda süfrə üzümünün yığımı sürətlənir



**Cəlilabadda üzüm tez yetişir. Elə ona görə də bu günlər gərgin əməklə hasilə gələn dadlı-ləzzətli süfrə üzümünü yığmaq üçün səhər gün çıxandan batana kimi yüzlərlə adam bağlarda çalışır.**

Kimi yetişmiş salxımları dərir, kimi onu çeşidləyici məntəqəyə daşıyır, kimi də məhsulu çeşidləyərək taralara yığır. Bax beləcə, indi hər gün Cəlilabadın üzüm bağlarından on tonlarla üzüm yığılıb bazarlara yola salınır. Yığım isə gündən-günə sürətlənir. İndiyədək 90 hektara yaxın bağdan 1030 tondan çox məhsul yığılmışdır. Orta məhsuldarlıq 120 sentnerdir. Texniki sorta gəldikdə, Cəlilabadda onun yığımına avqustun 15-dən başlanılacaq.

Cəlilabad torpağında xarici ölkələrdən gətirilmiş üzüm sortları daha çox səmərə verir. Bir neçə il əvvəl burada olan fransalı mütəxəssislər öz ölkələri ilə müqayisədə süfrə üzümü sortlarının, o cümlədən "Prima", "Atika", "Kardinal"ın Cəlilabadda daha tez, yəni 4-5 il əvəzinə 3 il ərzində bara düşdüyünü və yay aylarında "vətən"inə nisbətən tez yetişdiyini bildirmişlər. Onlar bunun əsas səbəbini havanın günəşli, torpağın münbit olması ilə əlaqələndirmişlər.

Hazırda rayonda üzüm istehsalı ilə üç müəssisə - "Avanqard", "Şərqi KO LTD" və "Vinyad" MMC-lər məşğul olur. Onlardan yalnız birinin Cəlilabadda emal müəssisəsi var. Bundan başqa, 100-ə yaxın fermer və torpaq mülkiyyətçisi də üzümçülüklə məşğuldur. Ümumilikdə üzüm əməktutumlu sahədir. Payız, qış aylarında belə bağlarda işləmək lazım olur. Məhsul yığılandan sonra isə təmir işləri görülür. Əyilən, yıxılan dirəklər qaldırılır, tənəklərin söykəndiyi cərgəboyu uzanan məftillər ehtiyac olduqda təzələnir. Sonrakı mərhələdə cərgələrin arası yumşaldılır, tənəklər budanır və s.

Amma üzümçülükdə müəyyən problemlər, çətinliklər də var. İstehsalçılar ilk növbədə qiymətdən narazılıq edirlər. İndi nübar üzümün bir kiloqramının qiyməti plantasiyada 40-80 qəpik arasındadır. Ən keyfiyyətli üzüm 80 qəpikdən satılır. Sahibkarlar deyirlər ki, nübar məhsulun qiyməti belədirsə, bir müddət sonra qiymət lap aşağı düşəcək. Belə qiymət yalnız iş adamları üçün sərfəlidir. Onlar "yoğurmadan, yapmadan hazırca kökə" tapırlar. Məlumdur ki, hər şey bahalaşıb. Fermerlər və sahibkarlar deyirlər ki, xəstəliklərə qarşı mübarizə tədbirlərini aparmaq üçün müxtəlif preparatları qanı qiymətinə alırlar. Becərmə xərcləri də ucuz deyil. Texniki üzüm sortlarını satmaq daha çətindir. İstehsalçılar işləri ni atıb müştəri axtarırlar.

Bütün bunlar deməyə əsas verir ki, kənd təsərrüfatı sahəsində bəzi məhsulların qiymətində uyğunsuzluq var. Bazar iqtisadiyyatı dediyimiz şəraitdə tələb-təklifin sərhədi bilinmir. Halbuki əkinçi ilin əvvəlində bilməlidir ki, nə qədər məhsul istehsal edəcək və kimə satacaq. Tədarük təşkilatları isə elə etməlidirlər ki, kəndli ziyana düşüb torpaqdan üz döndərməsin.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## İki yerli icra orqanı faydalı layihə reallaşdırır

### Naftalanın müalicə və sağlamlıq mərkəzlərinin qapıları şəhid ailələri və qazilərin üzünə açıqdır

Vətənimizin ərazi bütövlüyünün qorunması, torpaqlarımızın işğaldan azad olunması uğrunda canından keçmiş şəhidlərin ailələrinə, həmçinin müharibə əlillərinə dövlət və cəmiyyət tərəfindən böyük diqqət və qayğıkeşlik göstərilir.




Bu günlər Abşeron rayon və Naftalan şəhər icra hakimiyyətlərinin birgə təşəbbüsü ilə Abşeron rayonundan olan bir qrup şəhid ailəsi və qazi "Gold Naftalan" müalicə və sağlamlıq mərkəzində müalicəyə başlamışlar. Onlar müalicəyə başlamazdan əvvəl Naftalan şəhər rəhbərliyi ilə görüşmüşlər. Çay süfrəsi ətrafında keçirilən görüşdə qeyd edilmişdir ki, ölkəmizdə bütün imtiyazlı ailələr, xüsusən torpaqlarımızın müdafiəsi uğrunda həlak olmuş şəhidlərin ailələri, Qarabağ müharibəsi əlilləri və iştirakçıları dövlətimizin diqqət mərkəzindədir. Həm Prezident İlham Əliyev, həm də Birinci vitse-prezident Mehriban xanım Əliyeva daim onların sosial-məişət problemləri ilə maraqlanır, bu sahədə yaranan mövcud problemlərin aradan qaldırılması üçün tədbirlər görürlər.

Görüş zamanı şəhid ailələri və qazilər işğaldan azad olunmuş torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərindən qürurla danışaraq dövlət başçısına onlara göstərdiyi diqqət və qayğıkeşliyə görə minnətdarlıqlarını bildirmişlər.

Qeyd edək ki, Abşeron rayon və Naftalan şəhər icra hakimiyyətlərinin birgə layihəsi əsasında şəhid ailələri və qazilərin beynəlxalq turizm mərkəzi olan Naftalanda fəaliyyət göstərən müalicə və sağlamlıq ocaqlarında müalicəsi və istirahəti mütəmadi olaraq davam etdiriləcək.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Bir ildə Şəkidə 125 hektar yeni meyvə bağı salınıb

Şəkinin meyvə bağlarında məhsul yığımı davam edir. İndiyədək bağlardan 5 min 885,9 ton məhsul tədarük olunub.

Yığılan meyvələr arasında ərik, albalı, şaftalı, alça, gilas, gavalı və giləmeyvələr üstünlük təşkil edir. Yaxın günlərdə fındıq yığımına da başlanılacaq. Bu barədə AZƏRTAC-a Şəki Şəhər Statistika İdarəsindən məlumat verilib.

Bildirilib ki, hazırda Şəki rayonunda meyvə bağları və giləmeyvəliklərin ümumi sahəsi 7 min 383 hektardır. Bağların 4 min hektara yaxını barverən yaşdadır. Ötən ilin payız aylarında və bu ilin yaz mövsümündə rayon ərazisində 125 hektar sahədə yeni meyvə bağları salınıb. Yeni bağlara fındıq, xurma və gilas ağacları əkilib.






# TURİZM






● Gəzməli, görməli yerlərimiz

# Regionların inkişafına hesablanmış yeni turizm marşrutları

**Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə demişdir: "Turizm sahəsi həm regionların inkişafı, həm də ki, ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir". Odur ki, ölkənin iqtisadi qüdrətinin daha da artması və Azərbaycanın dünyada turizm ölkəsi kimi tanınması üçün bu sahəyə xüsusi diqqət yetirilir.**







Turizmin inkişafına dövlət səviyyəsində göstərilən qayğının uğurlu nəticəsidir ki, yay mövsümü başlayanda ölkəmizin cənub bölgəsi Lerikdən, Astaradan, Lənkərandan tutmuş Bakıya, Xəzərətrafı çimərliklərə, sanatoriya və istirahət yerlərinə gələnlərin sayı artır. Bu artımın bir səbəbi də odur ki, ölkəmizdə səyahətçilər üçün dünya standartları səviyyəsində şərait yaradılıb, müasir nəqliyyat strukturu - Heydər Əliyev Beynəlxalq Aeroportu, eləcə də turistlərin daha çox üz tutduqları bölgələrdəki beynəlxalq hava limanları qonaqların xidmətindədir. Buna Bakıdan bölgələrədək bir-birindən rahat yolları, gözəl hotelləri də əlavə edə bilərik. Qürur doğuran odur ki, bunu mətbuata açıqlamalarında xarici ölkələrdən gəlmiş əcnəbilər də etiraf edirlər ki, Azərbaycanda turizm inkişaf edir, dünyanın aparıcı hotellərinin brendləri fəaliyyət göstərir. Başlıca amil odur ki, Azərbaycanda sabitlik hökm sürür və gələn turistlərin təhlükəsizliyinə, səmərəli istirahətinə və gəzintisinə ciddi təminat var. Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Çünki işğaldan azad edilən ərazilərdə bunun üçün böyük potensial var.

Respublikamızda turizm xidmətlərinin il boyu təqdim olunması səyahətçilərin təkrar bu yerlərə dönməsinə təsir göstərir. Dünyada olan 11 iqlim qurşağından 9-u Azərbaycandadır. Bu, istər səyahətçilər, istərsə də müalicə məqsədilə ölkəmizə gələn əcnəbilər üçün vacib amillərdən hesab edilir. Bundan başqa, Azərbaycanın tarixi mədəniyyət abidələri səyahətçilərin hər zaman maraq göstərdiyi ünvanlardandır. Bunların sırasında Ümummilli Lider Heydər Əliyevin adını daşıyan mərkəz, sahil bağındakı Hərbi Qənimətlər Parkı, Bayraq Meydanı, İçərişəhər, Qız qalası, Şirvanşahlar sarayı, qəhrəman şəhidlərin uyuduğu Dağüstü park, tarixin minilliklərindən söhbət açan yerli memarlıq abidəsi hesab edilən mülklər, Qobustan qayaları, Beşbarmaq dağı, Şəki xan sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, Qubanın Xınalıq kəndi, Talış dağları, Göygöl və digər bu kimi ünvanlar turistlər üçün maraqlı olan məkanlardır.

Yay mövsümünün başlanması ilə əlaqədar Dövlət Turizm Agentliyi və Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin birgə təşkilatçılığı ilə "Nuh diyarı - Naxçıvan: 2020-2023-cü illər üçün Birgə Fəaliyyət Planı" mövzusunda keçirilən tədbir zamanı Türkiyə, İran və Azərbaycanı təmsil edən turizm şirkətlərinin əməkdaşları və media nümayəndələri Naxçıvanda olublar. Onlar Naxçıvan Biznes Mərkəzində keçirilən mərasimdə B2B (Biznesdən biznesə) formatlı görüşlərdə əməkdaşlıq perspektivlərini nəzərdən keçiriblər. Daha sonra hər üç ölkəni təmsil edən assosiasiya rəhbərləri arasında ikitərəfli görüşlər olub.

Qonaqlar Ordubad rayonuna səfər edərək qədim diyarın turizm imkanları ilə yaxından tanış olublar. Turizm şirkətləri və media nümayəndələri "Xan sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatun türbəsi və Açıq Səma Altında Muzey Kompleksi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, "Nuh Peyğəmbərin məzarüstü türbəsi" və "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksini ziyarət edərkən bu məkanlar barədə onlara ətraflı məlumatlar verilibdir. İştirakçılar Şahbuz Dövlət Təbiət Qoruğunun ərazisində yerləşən Batabat yaylağı, Ağbulaq Kənd Turizm-İstirahət bölgəsi, "Duzdağ" Fizioterapiya Mərkəzinin fəaliyyəti və turizm potensialı ilə də tanış olublar. Bütün bunlar növbəti aylarda, fəsillərdə Azərbaycana gələcək səyahətçilərin sayında artımın olacağına zəmin yaradır. Azərbaycan Prezidentinin, habelə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinə əsasən, dövlət səviyyəsində həyata keçirilən tədbirlərin, diaspor nümayəndələri tərəfindən dünyanın müxtəlif ölkələrində aparılan təbliğat-təşviqat işlərinin nəticəsidir ki, cari ilin yanvar ayından bəri Azərbaycana səfər edən əcnəbilərin sayı 2,3 dəfə artıb.

Dövlət Statistika Komitəsinin mətbuata açıqlamasında bildirilir ki, gələnlərin 25 faizi Rusiya Federasiyası, 23,8 faizi Türkiyə, 13 faizi İran, 5,2 faizi Gürcüstan, 4,6 faizi Səudiyyə Ərəbistanı, 2,8 faizi Pakistan, hər birindən 2,4 faiz olmaqla Birləşmiş Ərəb Əmirlikləri və Hindistan, 2,3 faizi Ukrayna, 1,8 faizi Qazaxıstan, hər birindən 1,3 faiz olmaqla Küveyt və Böyük Britaniya, 14,1 faizi digər ölkələrin vətəndaşları olub. Gələnlərin 78,3 faizini kişilər, 21,7 faizini qadınlar təşkil edib.

2021-ci ilin yanvar-iyun ayları ilə müqayisədə körfəz ölkələrindən gələnlərin sayı 3,2 dəfə artaraq 147,3 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 2,7 dəfə artaraq 33,3 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 1,8 dəfə artaraq 205,8 min nəfər olub.

Ölkəyə gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin 56,6 faizi hava, 41,7 faizi dəmir yolu və avtomobil, 1,7 faizi isə dəniz nəqliyyatından istifadə edib.

İşğaldan azad edilmiş bölgələrdə də turizmin inkişafı üçün böyük layihələr həyata keçirilir. Qarabağın təkrarolunmaz təbiət mənzərələri gözəllik simvolu, sağlamlıq və əsl istirahət mənbəyidir. Otuz ildən sonra bu cənnətməkan yerlərdə həyat yenidən canlanmağa başlayıb. Dövlət başçısının sərəncamı ilə respublikamızın mədəniyyət paytaxtı adlandırılan Şuşada, turizm, mədəni-kütləvi tədbirlər gündən-günə sürətlənir. Bu ilin birinci yarısında Şuşadakı mehmanxana tipli obyektlərdə 9,2 min gecələmə qeydə alınıb. Bundan başqa, 6 ayda Şuşadakı mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin birdəfəlik tutumundan istifadə səviyyəsi 17,1 faiz təşkil edib. Bu isə ölkə üzrə orta göstəricidən 4,7 faiz çoxdur. Füzulidə dünya standartlarına uyğun Beynəlxalq Hava Limanı istifadəyə verilib. Artıq Zəngilanın Ağalı kəndinin ilk sakinləri doğma yurdlarına əbədilik dönüş etmişlər. Ötən ilin yazında Zəngilanda buraxılış qabiliyyəti saatda 200 sərnişin üçün nəzərdə tutulan beynəlxalq hava limanının əsası qoyulub. Tikinti işlərinin cari ilin sentyabr ayında başa çatdırılacağı nəzərdə tutulub. Yeni aeroportların inşası bölgənin inkişafında mühüm rol oynayacaq. Yaxın gələcəkdə Laçında beynəlxalq hava limanının inşasına başlanılacaq. Prezident İlham Əliyev çıxışında bildirmişdir ki, Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq. Kəlbəcər tarixən faydalı qazıntı yataqları, səfalı təbiəti ilə yanaşı, İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə də məşhur olub. Ermənistanın işğalından sonra bölgənin təbii ehtiyatları qanunsuz istismar edilib.

Sovet dönəmində Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb. Mənbələrə görə, istisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxıb. Öz kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə istisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir. İstisu mineral bulaqları 12 bulaqdan ibarətdir. Sanatoriya hələ sovet illərində turistlərin ən çox üz tutduğu məkanlardan biri olub.

İyunun 26-da Prezident İlham Əliyev Göygöl, Laçın və Kəlbəcər rayonlarına səfəri zamanı bir sıra obyektlərin açılışı ilə yanaşı, Kəlbəcər rayonunda "İstisu" sanatoriyasının təməlqoyma mərasimində də iştirak etmişdir. Burada 34 hektar ərazidə salınacaq "İstisu" İstirahət-Müalicə Kompleksi gündəlik 300 nəfəri qəbul etmək imkanına malik olacaq. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, dünya standartlarına uyğun 10 kottec tikiləcək. Ekspertlər burada yay turizmi ilə yanaşı, qış turizminin də inkişaf etdirilməsi potensialının böyük olduğunu bildirirlər.

Regionlarda təbiətin zənginliyi və rəngarəngliyi turizmin müxtəlif növlərinin inkişafına geniş imkanlar yaradır. Odur ki, regional inkişafa dair dövlət proqramında nəzərdə tutulan tədbirlərdən 30-u turizmə həsr olunub. Dövlət başçısı bölgələrə səfərləri zamanı həmişə proqramın icrası ilə maraqlanır. Bu sahə ilə məşğul olan sahibkarlara tövsiyə və tapşırıqlarını verir. Artıq bir sıra rayonlarda diqqətçəkən infrastrukturlar yaradılıb. Bu sahədə Quba, Xaçmaz, Qusar, Lənkəran, Qax, Gədəbəy rayonlarında həyata keçirilən tədbirlər də təqdirəlayiqdir.

Bölgələrdə yerli əhali kənd turizmi ilə məşğul olaraq ilin bütün mövsümlərində yerli və xarici turistlərə yaşayış, yemək, hətta ekskursiya xidmətləri göstərirlər. Onu da diqqətə çatdıraq ki, Azərbaycanda turizmin bütün növlərinin inkişafı üçün ölkə rəhbəri tərəfindən müvafiq qurumların və icra strukturlarının rəhbərlərinə lazımi göstərişlər verilmişdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*



● Tarixi məkan

# Tarixi abidələri ilə zəngin diyar

## Hər il Naxçıvana xarici ölkələrdən minlərlə turist və qonaq gəlir

**Naxçıvan tarix-memarlıq abidələri və ilk insan yaşayış məskənləri ilə zəngindir. Özünəməxsus coğrafi mövqeyi, qədim mədəniyyət abidələri burada turizmin inkişafı üçün əlverişli şərait yaradır. Bu diyarda dini ziyarətgahlar, pir və imamzadələr çoxluq təşkil edir. Təkcə ziyarətgahlarının sayı 140-a yaxındır. Onlar inanclı insanların, yerli və xarici turistlərin daim ziyarət etdiyi əsas məkanlardır. Bu ərazidə qalaların çoxluğunun başlıca səbəbi isə Naxçıvanın zəngin təbii sərvətlərinin, şəhər mədəniyyətinin və inkişaf etmiş sənətkarlığının yadelli işğalçıların diqqətini cəlb etməsidir. Qalalar da müdafiə məqsədilə tikilmişdir.**

Naxçıvanda tarixi-mədəni turizm əsas yerlərdən birini tutur. Azərbaycanın bu kiçik parçası özündə əhəmiyyətli izlər qoruyub saxlamaqdadır. 1200-dən çox olan abidələrdən 57-si dünya, 495-i ölkə, 665-i isə yerli əhəmiyyətlidir. Hər il buraya Azərbaycanın bölgələrindən və xarici ölkələrdən minlərlə turist və qonaq gəlir.

### Naxçıvanın şanlı tarixinə şahidlik edən abidə

Qonaqları heyran qoyan Naxçıvanqala xalq arasında "Köhnəqala" adı ilə də tanınır. Qalanın inşa tarixi 632-652-ci illərə aid edilir. 1957-1959-cu illərdə qalanın ərazisində aparılan tədqiqatlar zamanı zəngin arxeoloji materiallar, xüsusilə saxsı qab fraqmentləri, daş gürzlər aşkar olunmuşdur. Arxeoloji tədqiqatlardan məlumdur ki, belə daş gürzlərdən Tunc dövründə eramızdan əvvəl III-II minilliklərdə duz mədənlərində istifadə olunub. Türk səyyahı Övliya Çələbinin verdiyi məlumata görə, monqol işğalçıları qalanı dağıdıblar. Həmin qala sonralar Naxçıvanda olmuş fransız səyyah Şarden və Frehanqın da əsərlərində xatırlanır. Qala XIX əsrədək fəaliyyətdə olub. 1827-ci ilin planında bu qala sxematik qeyd olunub.

Qala iki hissədən - kiçik qala, yəni Narınqala və Böyük qaladan ibarət olmuşdur. Narınqalanın qalıqları günümüzədək qorunub saxlanmışdır. Narınqalanın cənub-qərbində 300 nəfərin qoruna biləcəyi yeraltı sığınacaq-mağara var. Onun havalandırılması və işıqlandırılması üçün yuxarıdan oyuq açılmışdır. Mağaradan qalanın şərqinə tərəf gedən gizli yol çox güman ki, qaladan təxminən 2 kilometr aralı məsafədə axan Naxçıvan çayına çıxır. Narınqalanın altından keçən kəhrizin iki quyusu qalanın içərisində yerləşir.



### Muzey Kompleksində bərpa işləri aparılıb

Bərpasına 2010-cu ildən başlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında" 2013-cü il 5 iyun tarixində sərəncam imzalayıb. 2014-cü il aprel ayının 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin açılışı olub.

Belə abidələrin bərpası və qorunması gələcək nəsillərə Azərbaycanın qədim tarixinin çatdırılması, eyni zamanda Naxçıvana turistlərin marağının artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olmuş Naxçıvanqala müharibələr nəticəsində dağıdılmış və əvvəlki möhtəşəmliyini itirmişdir. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanmış və həmin ərazidə yenidənqurma işləri aparılmış, qalanın əvvəlki görkəmi özünə qaytarılmışdır.

Kompleksin ətrafında və daxilində geniş abadlıq-quruculuq işləri aparılmış, işıqlandırma sistemi quraşdırılmış və yaşıllıq zolaqları salınmışdır. Dünyanın ən qədim insan məskənlərindən biri olan Naxçıvan ərazisində xalqımız tarixin bütün dövrlərində zəngin mədəniyyət və memarlıq nümunələri yaratmışdır. Araşdırmalar göstərir ki, bu memarlıq abidələri arasında özünəməxsus yeri olan Naxçıvanqala yalnız müdafiə məqsədi daşımamışdır, eyni zamanda burada formalaşmış ilkin şəhər mədəniyyətinin ayrılmaz elementinə çevrilmişdir. İlk Orta əsrlərə aid mənbələrdə tarixçilər Naxçıvan şəhərini ətrafı möhkəmləndirilmiş qala kimi xarakterizə edirlər.

### Nuh Peyğəmbərin yurdu

Qala divarları yaxınlığında Nuh peyğəmbərin məzarının olması buranın tarixi əhəmiyyətini artıran mühüm amillərdən biridir. Bu yer son illərdə yerli və əcnəbi vətəndaşlar, müxtəlif dinlərin nümayəndələri tərəfindən ən çox ziyarət edilən ünvanlardan sayılır. Bizim eradan əvvəl I əsrdə yəhudi tarixçisi İosif Flavi və bizim eranın II əsrində yunan coğrafiyaşünası Klavdiy Ptolomey Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, rus tədqiqatçısı K.A.Nikitin isə 1882-ci ildə nəşr etdirdiyi məqaləsində Naxçıvan şəhərinin əsasının Nuh peyğəmbər tərəfindən qoyulduğunu qeyd etmişdir. Türbə Naxçıvan şəhərinin cənub tərəfində, Köhnəqala adlanan ərazidə yerləşən memarlıq abidəsidir. Məzarın hazırkı görkəmi VIII yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə məzar yerdən qalxan, çox da böyük olmayan türbəni xatırladır. Əvvəlcə burada məbəd olmuş, sonra uçub dağılmışdır. Hazırkı türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarından ibarətdir. Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, ortadan daş dirəklə möhkəmləndirilmiş sərdabə tipindədir. Rəvayətə görə, həmin dirəyin altında Nuhun cənazəsi yerləşir. Sərdabədə obrazların və bəzəklərin təsviri yoxdur. Buranın divarları ağardılmış, səyyahların və ibadətə gələn zəvvarların müxtəlif dillərdə olan adları ilə yazılıb doldurulmuşdur.



### Nuh tərəfdarlarının çıxdığı yer

Rəvayətə görə, təxminən 7500 il bundan əvvəl baş vermiş daşqın zamanı Həzrəti Nuh peyğəmbərin gəmisi Naxçıvan ərazisindəki İlandağa toxunub, Qapıcıq zirvəsinə yaxın dağ ətəyində lövbər salıb. Həmin yerin Gəmiqaya adlandırılması, bu ərazidə Nəbi yurdu adlanan yaylaq yerinin və yaxınlıqda Nuhdaban adlanan qədim yaşayış məskəninin mövcud olması, əfsanədə öz əksini tapan mətləblərin gerçəkliyə uyğunluğunu ehtimal edir. Həzrəti Nuh peyğəmbərlə bağlı rəvayətlərdə onun özünün və bacısının məzarlarının Naxçıvan şəhərində olması barədə məlumatlar da öz əksini tapıb. Nuh və ona iman gətirənlərin mindiyi gəminin ilk dəfə Naxçıvanda quruya çıxması ilə insanların burada məskən salması rəvayətlərdə yer alıb. İddia olunur ki, yeni nəsil məhz buradan törəyərək artıb, təşəkkül tapıb. Təsadüfi deyil ki, "Naxçıvan" sözü "Nuh tərəfdarlarının çıxdığı yer" mənasında işlədilir. Muxtar respublikaya Nuh yurdu da deyilir. Azərbaycanda realist rəssamlıq sənətinin banisi Bəhruz Kəngərli XX əsrin əvvəllərində yağlı boya ilə Naxçıvan şəhərindəki Nuhun türbəsinin naturadan şəklini çəkib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" 2006-cı il 28 iyun tarixli sərəncamı əsasında 2007-2008-ci illərdə qədim abidə tarixi mənbələr nəzərə alınmaqla yenidən bərpa olunub, ərazidə geniş abadlıq və yenidənqurma işləri aparılıb.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*




# Saqqızın kəşfi



**Nəfəsi təravətləndirən, ağzı dadlandıran, uşaqların isə sevimli ləlləgiləsindən biri olan saqqız uzun illərin kəşfidir. Qədim vaxtlarda ibtidai insanlar ağızda yarana biləcək infeksiyalara qarşı qatran çeynəyərdilər. Ən qədim saqqız isə İsveçin Orust adasından arxeoloji qazıntılar zamanı aşkarlanıb. Məlum olub ki, bu, 9 min il əvvəl Daş dövründə yaşayan bir yeniyetmə tərəfindən icad edilib. Tündrəngli saqqız bal ilə şirinləşdirilmiş qatrandan hazırlanıb.**

Qədim yunanlar saqqız ağacının (Pistacia lentiscus) qatranını çeynədikləri halda, Mayyalılar və Asteklər "Manilkara zapota" və ya "Sapodilla" kimi tanınan ağacdan əldə etdikləri qatranı bişirib qurudaraq saqqız hazırlayırdılar. Günümüzdə istifadə edilən saqqızların tarixi isə XIX əsrdən başlayır. Həmin vaxtlarda Şimali Amerikada yerli əhali küknar ağacının qatranını çeynəyirdilər.

Amerikalı Con Körtis kommersiya məqsədilə hazırlanan saqqızın yaradıcısıdır. Bu 1840-cı illərin sonlarında başa verib. O, küknar ağacının qatranını qaynatdıqdan sonra bir-birinə yapışmaması üçün üzərilərinə qarğıdalı nişastası səpib. Daha sonra uzun zolaqlı formada kəsərək qablaşdırıb. 1850-ci illərin əvvəllərində isə Con Körtis Portlandda dünyanın ilk saqqız fabrikinin əsasını qoyub.

Məlum olur ki, küknar ağacının qatranı saqqız istehsalı üçün əlverişli deyil. Belə ki, o, xoş dada malik olmamaqla yanaşı, çeynənildiyi zaman da ovulurdu. Odur ki, sonradan saqqızların hazırlanmasında parafindən istifadə edilib.

Saqqız istehsalında əsas mərhələ ixtiraçı Tomas Adamsın hazırladığı məhsuldan başlayır. O, saqqızı saqqız ağacından (Chicle) hazırlamaq qərarına gəlir. Adams 1880-ci illərin sonlarında saqqız istehsal edən bir şirkət yaradır. Meksika və Mərkəzi Amerikadan ABŞ-a gətirilən saqqız ağacı 1900-cı illərin ortalarına, yəni istehsalçılar sintetik maddələrdən istifadə edənə qədər məhsulun əsas tərkib hissəsi olur.

İlk saqqızlar ağac qatranlarından və təbii mumlardan hazırlanırdısa, hazırda hər iki inqrediyent sintetik məhsullardan əldə edilir. Xüsusi dad və qoxu üçün rəng və dadvericilərdən istifadə olunur. Günümüzdə təbii saqqız tapmaq isə olduqca çətindir.

# Nazik kartof dilimləri

**Kartof çipslərinin yaranmasının, sadəcə, bir istəklə meydana çıxdığı qeyd edilir. Belə ki, XIX əsrdə Nyu-Yorkda yerləşən restoranlardan birində yemək yeyən gəmiçilik maqnatı Kornelius Vanderbilt süfrəyə gətirilən qızardılmış kartofların çox qalın olduğundan narazılıq edərək aşpazdan yenisini bişirməyi tələb edib.**



Bundan qəzəblənən aşpaz Corc Krom kartofları olduqca nazik dilimləyib xırtıldayana qədər qızardaraq Vanderbiltə göndərib. Əslində, aşpaz bunu Vanderbiltə dərs vermək üçün edib, amma gözlənilmədən maqnat yeməkdən məmnunluğunu bildirib.

Qısa bir vaxtda Kromun "Saratoqa Çipsləri" Nyu York ştatından kənarda da məşhurlaşıb. 1860-cı ildə Krom Saratoqa şəhəri yaxınlığında "Crum's House" adı ilə tanınan restoranını açıb.

Əslində, bu əhvalatla bağlı bir neçə hekayətlər də var. Hətta bəzi mənbələrdə Kromun kartof çipslərinin yeganə ixtiraçısı olmadığı da bildirilir. Çipsin məlum olan ən qədim resepti 1817-ci ilə aid edilir. Bu, Uilyam Kitçinerin "qızardılmış kartof" reseptinin də olduğu yemək kitabında qeyd edilib.

Kartof çipsləri uzun müddət yalnız restoranlarda mövcud olan delikates idi. Lakin 1895-ci ildə Uilyam Tappenden adlı sahibkar kartof çipslərini hazırladıqdan sonra rəflərdə saxlamağın yolunu da tapır. Daha sonra həyətindəki anbarı fabrikə çevirir. O, çipsləri hazırlayıb çəlləklərdə bazarlara çatdırır.

1926-cı ildə isə kaliforniyalı qadın sahibkar Laura Skadder çipsləri mum və kağızdan hazırlanmış torbalarda qablaşdırmağa başlayıb. Bununla da çipslərin köhnəlməsinin qarşısı alınıb. Çipslərin ən məşhur markası olan "Lay's" isə Herman Leyin 1932-ci ildə müxtəlif qəlyanaltılar hazırlayan bir şirkət açması ilə ortaya çıxıb.

Hazırda çipslərin onlarca çeşidlərini, müxtəlif dadlı növlərini əldə etmək mümkündür. Çipslər piylənmə və hipertoniya kimi problemlərin yaranmasında rol oynadığı üçün uzun müddət tənqid olunsa da, qəlyanaltı sənayesində olduqca populyardır. Onların qatqısız təbii inqrediyentlərlə hazırlanan növləri də var.

# Kinoteatrlarda sevilən qəlyanaltı



**Kinoteatrların əvəzedilməz qəyanaltılarından olan, ətri uzaqdan belə duyulan popkornların tarixi də qədimlərə gedib çıxır. Araşdırmalara görə, qarğıdalı qədimdə Meksikanın cənub-qərbində yabanı bitki kimi yetişib. Ehtimal edilir ki, bu, yeyilə bilən bitki kimi təxminən 9 min il əvvəldən becərilir.**

2012-ci ildə arxeoloqlar Peruda popkornun ilk nümunələrinə rast gəliblər. Partlayan növdən olan bu qarğıdalı dənələrinin 6 minillik tarixi olduğu bildirilir. Qurudulmuş dənələrin ən sadə texnologiyalarla hazırlanıb istehlak edilə bilməsi nəticəsində popkorn ilk qəlyanaltılardan biri sayılır..

Bugünkü popkornlar erkən qəbilələrin bir neçə müxtəlif qarğıdalı növlərinin min illər ərzində becərilməsinin nəticəsidir. XIX əsrdə amerikalılar qarğıdalıdan bir çox məhsullar hazırlamağa başlamışdılar. Hazırkı popkornların yaranması da məhz bu dövrdən başlayır.

1875-ci ildə ABŞ-ın Kentukki ştatının sakini Frederik Myers qarğıdalı bişirən cihazı patentləşdirib. Popkornları partladan maşını isə 1885-ci ildə Çarlz Kretors ixtira edib. Buxarlı mühərriklə işləyən bu qurğuda qarğıdalı dənələri kərə yağında partladılırdı. Sonralar Kretors popkornu yağlayan və duzlayan mexanizmi taparaq onu təkmilləşdirib.

Popkornun kinoya yol alması isə 1920-ci illərdən sonra başlayır. Həmin vaxtlarda Amerikada kinoteatrların populyarlaşması qəlyanaltı satıcılarının da öz piştaxtalarını kinozalların binaları qarşısına daşımasına səbəb olub. Belə ki, satıcılar izdihamı bir satış fürsətinə çevirərək kinoya gələnlərə popkorn təklif ediblər. Lakin çox keçmir ki, yerə tökülən və yapışqanlıq yaradan yağlı popkornlar kinoteatrların qiymətli kilimlərini yararsız hala salır. Buna görə də əksər kinoteatrlar qəlyanaltı və içkilərlə içəri daxil olmağı qadağan edir.

Sonrakı vaxtlarda maliyyə problemi yaşayan kinoteatrlar lobbilərinin bir hissəsini popkorn və qəlyanaltı satıcılarına icarəyə verməyə başlayıblar. Bununla da qadağa ləğv edilib.

# Günəbaxan tumları

**Günəbaxan amerikalıların yabanı bir bitkini becərib çiçəkli formaya saldıqları məhsuldur. Daim günəşə boylanan bu bitkidən ilkin vaxtlardan başlayaraq müxtəlif məhsullar əldə edilib. Günəbaxandan hazırlanan yağ qidalanmada önəmli yer tutur. Tumları isə hər kəs tərəfindən sevilir.**

Avropalı tacirlər bu bitkini təxminən 1500-cü illərdə öz vətənlərinə apararaq becərməyə başlayıblar. Rusiyada isə qida bitkisi kimi məşhurlaşana qədər günəbaxan dekorativ bitki kimi yetişdirilib. 1800-cü illərin əvvəllərindən etibarən Rusiyada hər il 2 milyon hektardan çox sahədə yetişdirilən günəbaxanın yeni növləri də ortaya çıxıb, ixracatda əhəmiyyətli rol oynayıb.

Günəbaxan tumları təkcə insanların yox, eləcə də quşların, dələlərin və digər heyvanların da sevimli qidasıdır. Bir çox hallarda onun çiçəyinin başlarını torlara bükərək heyvanlardan qoruyurlar. Günəbaxanın müxtəlif növləri becərildiyindən onlardan əldə edilən tumlar da fərqli olur.

Günəbaxan bitkisinin müxtəlif növləri var. Həmin növlər yeyintidə və istehsalatda istifadə edilir. Belə ki, yağ istehsalında əsasən qabığı bərk və qara olan tumlardan, yeyintidə isə zolaqlı tumlardan istifadə edilir. Adətən, bərk qara tumların yağları sıxılaraq çıxarılır.



Günəbaxan tumları Amerikada 1900-cü illərdən başlayaraq qovrularaq satılmağa başlanılıb. Xüsusi dadın yaradılması üçün isə tumlara müxtəlif ədviyyatlar qatılırdı.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*




# Cinayəti əvvəlcədən "görən" alqoritm

**ABŞ-dakı Çikaqo Universitetinin mütəxəssisləri cinayətin törədiləcəyini bir həftə öncədən proqnozlaşdıran alqoritm yaradıblar. Onun dəqiqlik səviyyəsi 90 faizdir. Lakin bu, yalnız alqoritmin kiçik ərazi üzrə verdiyi proqnozlarda özünü doğruldur.**



Hazırda dünyanın ən aparıcı alqoritmlərindən biri hesab edilən bu sistemin əsasında təlimatlandırılmış neyron şəbəkəsi dayanır. Şəbəkə baş verə biləcək cinayətlərin yerini, zamanını və qanunauyğunluqlarını təhlil edir. Proses zorakılıq və mülkiyyət cinayətləri üzrə açıq mənbə olan məlumatlar əsasında reallaşdırılır. Mütəxəssislər bu alqoritmi artıq Çikaqo, Atlanta, Ostin, Los-Anceles və digər böyük şəhərlərdə test ediblər.

Sözügedən alqoritmin sistemi belə çalışır: bu və ya digər şəhər 300 metrlik ölçüdə kvadratlara bölünür. Daha sonra sistem baş vermiş ayrı-ayrı cinayətlərin zamanlarını və yerlərini analiz edərək müəyyən qanunauyğunluqları müəyyənləşdirir və yalnız bundan sonra növbəti cinayət hadisələrini proqnozlaşdırır.

Mütəxəssislər sistemə keçmişdə baş vermiş hadisələrlə bağlı məlumatları da daxil edəcəklər ki, o da öz növbəsində gələcəkdə baş verə biləcək cinayətləri daha dəqiq proqnozlaşdıracaq.

# "Xiaomi"dən yeni məhsul



**Xiaomi şirkəti "Mi Band 7 Pro" smart qolbağını təqdim edib. "Mi Band 7 Pro" qolbağında ilk dəfə dizayn dəyişikliyi edilib. Bu 280x456 piksel keyfiyyətli 1.64 düym AMOLED ekranla təchiz olunub. Bu dəfə şirkət ənənəvi "Mi Band" ekran dizaynından imtina edib və elə buna görə də "Mi Band 7 Pro" xarici görünüşcə smart qolbağı deyil, smart saatı xatırladır.**

Smart qolbaq üçün 180 ədəd unikal ana ekran dizaynı mövcuddur. Əlavə olaraq onun ekranı "Always on Display" funksiyasını da dəstəkləyir. Bunun sayəsində istifadəçi daim ekranda zamanı və digər faydalı məlumatları görə biləcək. "Mi Band" seriyası yarandığı gündən ilk dəfə olaraq "Mi Band 7 Pro" "GPS" modul əldə edib. Onun sayəsində qolbaq smartfona ehtiyac duymadan istifadəçinin qət etdiyi marşrutu qeydə ala bilir. "Mi Band 7 Pro" "GLONASS", "Galileo", "Beidou" və "GPS" kimi naviqasiya sistemlərini dəstəkləyir.

Smart qolbaq qanda oksigenin miqdarını və ürək döyüntülərinin tezliklərini də ölçə bilən sensorlarla təchiz olunub. İstifadəçinin yuxu fazalarının monitorinqini də reallaşdırır. Cihazda 117 idman rejiminin dəstəyi mövcuddur. "Mi Band 7 Pro" özündə 235 mAh enerji tutumlu batareyanı birləşdirir. Bir dəfə şarj olunandan sonra adi rejimdə 12, intensiv rejimdə isə 6 gün çalışır. Bununla yanaşı, smart qolbağa kontaktsız ödənişlər üçün nəzərdə tutulmuş "NFC" çip inteqrasiya edilib və cihazın gövdəsi 5 atmosfer təzyiqli dərinliyə kimi suya daxil edilə bilər.

# "Honor"dan növbəti smartfon



**Şirkət "Honor X40i" adlı yeni ortabüdcəli smartfonunu təqdim edib. O, böyükölçülü ekran, 50 meqapiksellik arxa kamera və ortasəviyyəli batareya həcmi əldə edib.**

Beləliklə, smartfon 90 Hz-lik təsvir yenilənməsinə sahib 2388x1080 piksel keyfiyyətli 6.7 düym IPS ekran ilə təchiz olunub. Ekranın yuxarı mərkəz hissəsində ön kamera üçün nəzərdə tutulmuş kiçik dairəvi çıxıntı yerləşdirilib. Barmaq izi yandırıb-söndürmə düyməsinə inteqrasiya edilib. Smartfonda mono səsgücləndiricilər reallaşdırılıb. Kontaktsız ödənişlər üçün NFC çipi mövcud deyil.

Əsas texniki göstəricilərə gəldikdə isə, "Honor X40i" modeli 8 nüvəli "MediaTek Dimensity 700" prosessoru, 8/12 GB RAM, 128/256 GB daxili yaddaş həcmi, 50 MP + 2 MP ikili arxa kamera, 8 MP-lik ön kamera və 40 vatt gücündə sürətli şarj texnologiyalı 4000 mAh enerji tutumlu batareya ilə təchiz olunub. Smartfonun arxa kameraları ilə ön kamerası 1080 və 720 piksel keyfiyyətində videolar çəkə bilirlər. "Honor X40i" "Magic UI 6."1 interfeysli "Android 12" vasitəslə çalışır.

# İnsana donuz ürəyi köçürülüb

**Birinci GMO (Genetik modifikasiya edilmiş orqanizm) donuz ürəyinin transplantasiyası iyunun ortasında, ikinci transplantasiya isə iyulun əvvəlində baş tutub. Keçirilmiş hər iki cərrahiyyə əməliyyatının uğurla reallaşdırılması barədə məlumatı Nyu York Universitetinin mütəxəssisləri veriblər. Qeyd etmək lazımdır ki, bu, il ərzində belə əməliyyata ehtiyac duyan pasientlərə donuz ürəyi transplantasiyası üzrə keçirilmiş ikinci cəhddir.**



Tarixdə ilk dəfə bu cür əməliyyat yanvarda ABŞ-da baş tutmuşdu. Lakin həmin əməliyyat çərçivəsində GMO donuz ürəyini əldə etmiş pasiyent yalnız 2 ay yaşaya bildi. Mütəxəssislər ölümün səbəbini müəyyən ediblər. Məlumat verilib ki, ürəyin vəfat etmiş pasient orqanizmində uzun müddət ərzində funksional ola bilməməsinin səbəbi donuz virusu imiş. Lakin qeyd etmək lazımdır ki, reallaşdırılmış sonrakı iki əməliyyat nəticəsində GMO donuz ürəyi faktiki olaraq artıq ölmüş insanlara transplantasiya edilib. Belə ki, həmin pasientlərin beyinləri artıq ölmüş vəziyyətdə olub. Transplantasiya zamanı GMO donuz ürəkləri xüsusi aparat vasitəsilə döyündürülüb. Bu isə öz növbəsində həmin pasientlərə donor orqanının transplantasiyasını reallaşdırmağa imkan verib.

# "Chrome"un yeni funksiyası

**Yaxın vaxtlarda təqdim olunacaq yeniləmə sırasında "Chrome" brauzeri üçün faydalı funksiya istifadəyə veriləcək.**



Bu funksiya "Chrome" daxilindəki fon rejimində çoxlu qovluğun açıldığı halda belə, cihazın enerji sərfiyyatına qənaət edəcək. Hələlik yalnız tərtibatçılar üçün nəzərdə tutulan versiya daxilindəki yeni funksiya smartfonun enerji sərfiyyatına qənaət etməklə yanaşı, sözügedən brauzerə sahib köhnə smartfonların internetə qoşulma performanslarını da artıra bilər. "Google Chrome" dünyanın ən məşhur brauzeri olsa da, bu və ya digər cihazın sistem resurslarından da geniş istifadəsinə görə də tanınır.

"Chrome"dan 5 və ya daha çox dəqiqə ərzində istifadə edilmədikdə brauzerdə açıq qalmış qovluqlarda yalnız hər dəqiqədən bir "JavaScript" kodu reallaşdırılır. Faktiki olaraq bu proses istifadə edilməyən qovluqları "Sleep" rejiminə göndərir. Verilmiş məlumata əsasən, brauzerin tərtibatçılar üçün nəzərdə tutulmuş versiyasının daxilində "Quick intensive timer throttling of loaded backgorund pages" adlı funksiya istifadəyə verilib. Sözügedən funksiyanın aktivləşdirilməsindən sonra o, cihazın prosessor resurslarına 5 dəqiqədən sonra yox, 10 saniyədən sonra qənaət etmək imkanını verir.

Beləliklə, funksiya prosessorun sərf etdiyi vaxtı 10 faiz azaldır. Bu o demək deyil ki, istifadəçi öz cihazında 10 faiz daha çox çalışacaq. Cihazın batareyasındakı enerji sərfiyyatının yalnız kiçik bir hissəsi prosessorun payına düşür. Bununla belə, istifadəçilər yeni versiyada çoxlu sayda qovluq ilə çalışma prosesi zamanı enerji sərfiyyatındakı fərqi görə biləcəklər.

Məlumata görə, yeni funksiya yaxın aylarda "Chrome"un "Windows", "Linux", "ChromeOS", "macOS", "iOS" və "Android" versiyalarında istifadəyə veriləcək. O, "Opera" və "Microsoft Edge" kimi "Chromium" mühərriki əsasında çalışan digər brauzerlərdə də istifadəyə veriləcək.

# Saxta "Whatsapp"lar

**"Whatsapp"ın rəhbəri Uill Keçkert "Twitter" səhifəsində "Android" istifadəçilərini saxta "Whatsapp" versiyalarının yayılması barədə xəbərdarlıq edib. Dünyanın bu ən məşhur messenceri istifadəçiləri aldatmaqda maraqlı olan dələduzlar üçün cəlbedici platformaya çevrilib.**




Messencerin informasiya təhlükəsizliyi üzrə mütəxəssisləri bu yaxınlarda özlərini "Whatsapp" kimi qələmə verən saxta proqram təminatlarını aşkar ediblər. Söhbət "Google Play"dən kənarda yüklənən proqram təminatlarından gedir. Buna misal kimi, "Hey Whatsapp" tətbiqini və orijinal messencerin digər klonlarını göstərmək olar.

Məlumata görə, sözügedən tətbiqin yaradıcısı istifadəçilərə alternativ funksiyalar vəd edib. Əslində isə, bu funksiyalar istifadəçilərin cihazlarından konfidensial məlumatların oğurlanması üçün nəzərdə tutulmuş "tələb"lərdir.

"Meta" "Google" ilə birlikdə bu saxta tətbiqlərə qarşı mübarizə aparmağa başlayıb. "Google Play"də saxta "Whatsapp" versiyaları mövcud deyil. Lakin belə messencerlərin tərtibatçıları istifadəçiləri həmin saxta versiyaları kənar resurslardan yükləməyə sövq edirlər. "Google Play Protect" sistemi isə daha öncə yüklənmiş saxta "Whatsapp" versiyalarını təyin edərək onları deaktiv etməyi bacarır.

# Altıncı pilotsuz avtomobil modeli

**Çinin "Baidu" şirkəti avtonom şəkildə hərəkət edən avtomobil istehsalçıları ailəsinə qoşulub. Şirkət avtopilot sistemi ilə idarə olunan taksi modelini təqdim edib. Sürücüsüz "taksi" yaxın gələcəkdə Çində ilk sərnişinlərini daşıyacaq.**



"Apollo RT6 EV" adlandırılan avto xarici görünüşcə off-road ilə minivanın sintezini xatırladır. Avtomobil çıxarıla bilən sükana malikdir. Elə bunun da sayəsində elektromobil sürücüsüz də hərəkət edə bilir.

"Apollo RT6 EV" şirkətin altıncı nəsil pilotsuz avtomobil modelidir. Dördüncü səviyyəli avtopilot sistemini özündə birləşdirir. Bu isə o deməkdir ki, "Apollo RT6 EV" öncədən qeyd edilmiş ərazilərdə tamamilə avtonom şəkildə hərəkət edə bilir. Bunun üçün elektromobil 38 ədəd sensorla təchiz olunub. Onlardan 8-i "LiDAR" skaneridir və həmin skanerlər elektromobilin ətraf mühitdə istiqamətlənməsinə kömək edir.

Elektromobil 4 sərnişin üçün nəzərdə tutulub. Sükanın çıxarılması halında isə salonun ön hissəsində əşyaların yerləşdirilməsi üçün nəzərdə tutulmuş əlavə yer də yaranır. Həmçinin elektromobilin salonunda sərnişinlərə nəzarət üçün kameralar da qoyulub. Onun texniki özəllikləri barədə isə hələlik məlumat verilmir.

"Baidu" şirkəti elektromobil istehsalını 2025-ci ilə kimi Çindən kənarda 65, 2030-cu ilə kimi isə 100-dən çox ölkədə inkişaf etdirməyi planlaşdırır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Çövkən milli atüstü oyunu üzrə Şuşa kuboku turnirinin final görüşü keçirilib

## Binə Atçılıq Mərkəzində keçirilən turnirin qalibləri mükafatlandırılıb







Avqustun 6-da Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə çövkən milli atüstü oyunu üzrə Şuşa kuboku turnirinin final görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Binə Atçılıq Mərkəzini qapalı manejində baş tutan final görüşündən əvvəl tamaşaçılara "Odlar yurdu" şousu nümayiş etdirilib.

Yarışın həlledici görüşündə "Buta Qolden" və "Polad" komandaları birincilik uğrunda mübarizə aparıblar. "Polad" komandası ilk hissəni 1:0 öndə başa vurub. İkinci hissəyə də "Polad" yaxşı başlayaraq hesab arasındakı fərqi ikiyə çatdırıb. Matçın sonlarında "Buta" təsəlli qolu vurub. Beləliklə, gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşmada "Polad" komandası rəqibini 2:1 hesabı ilə məğlub edərək Şuşa kubokunun qalibi olub.

Qeyd edək ki, "Sərhədçi Dilbaz" və "Köhlən" komandaları arasında Şuşa kubokunda üçüncü yer uğrunda mübarizə isə "Sərhədçi Dilbaz" komandasının 5:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Oyundan sonra Şuşa kubokunun turnirinin qaliblərinin mükafatlandırılması mərasimi olub.

Yarışın qalib komandası qızıl medal və kubok, ikinci və üçüncü yeri tutan komandalar isə müvafiq olaraq gümüş və bürünc medallarla təltif olunublar. Mükafatları ARAF-ın prezidenti Elçin Quliyev təqdim edib. E.Quliyev çıxış edərək məlumat verib ki, qalib komandaya 10 min, finalçıya 7 min və bürünc medalçıya 4 min manat pul mükafatı da veriləcək.

Turnirdə altı komanda kubok və medallar uğrunda mübarizə aparıb.

Xatırladaq ki, qrup oyunları nəticəsində üç güc səbətindən eyni reytinqə sahib olan komandalar arasında A qrupunda yer alan "Sərhədçi Dilbaz" və "Polad" komandaları, B qrupundan isə "Buta Qolden" və "Köhlən" komandaları yarımfinala vəsiqə qazanıb. Yarımfinal oyunlarında "Buta Qolden" komandası "Sərhədçi Dilbaz" komandası üzərində 5:3 hesablı, "Polad" komandası isə "Köhlən" komandası üzərində 4:0 hesablı qələbə əldə edib.

# Milli mədəniyyətimizin dünyanı heyran edən möhtəşəm nümunəsi

## VIII "Muğam" Televiziya Müsabiqəsinə Şuşa şəhərində yekun vuruldu





Onu əbəs yerə Azərbaycan musiqisinin beşiyi adlandırmırlar. Bu şəhərin hər daşına, qayasına, ab-havasına muğam hopub. O muğam ki, xalqımızın təlatümlü keçmişinin sədaları əbədiləşib onda. Bu günümüzün arzularına qol-qanad, ümidli sabahlarımızdan soraq verir, dinləyənlərə əsrarəngiz duyğular, heyrətamiz hisslər bəxş edir. Sevincimizə ortaq, dərdimizə şərik, yaralarımıza məlhəm olur...

### Azad Şuşa tarixi günlər yaşayır

2020-ci ilin 8 noyabrı Azərbaycan tarixinə Zəfər günü kimi yazıldı. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində dedi: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!"

Erməni işğalında qaldığı illərdə Şərqi Zəngəzurun və Qarabağın digər əraziləri kimi Şuşa şəhərinin də başı çox müsibətlər çəkdi. İndi isə azad Şuşanın yeni növrağı başlayıb. 2021-ci il mayın 7-də Prezident İlham Əliyev "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Sərəncam imzaladı. 2022-ci ili isə dövlət başçısı "Şuşa ili" elan etdi. Nəinki Şuşada, bütün ölkə miqyasında "Şuşa ili" çərçivəsində bir-birindən maraqlı, yaddaqalan, möhtəşəm tədbirlər düzənlənir.

Şuşa qısa müddətdə sürətlə inkişaf edir. Az vaxtda inşa edilən Zəfər yolu tarixi torpaqlarımıza qayıdışımızın ilk əlaməti oldu. Uzun ayrılıqdan sonra bu qədim tarixi şəhərimiz öz əzəli və əbədi sakinlərinə qucaq açdı.

Şuşada tikinti, quruculuq işləri uğurla davam edir, tarixi, mədəni, dini abidələrin bərpası aparılır. Artıq Bülbülün Ev-Muzeyi təmir edilib. Üzeyir Hacıbəylinin Ev-Muzeyinin təmiri başa çatmaqdadır. Üç məsciddə təmir-bərpa işləri həyata keçirilir. Bir sözlə, 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyevin Şuşanın işğaldan azad olunması ilə əlaqədar xalqa müraciətində dediyi "Şuşa, biz səni dirçəldəcəyik!" - sözləri reallığa çevrilir.

### Dünyaya səs salan tədbirlərin keçirildiyi məkan

1992-ci ildə təcavüzkar ermənilərin işğalına məruz qalanadək bu şəhər çox möhtəşəm təbirlərin keçirildiyi məkan kimi də tanınırdı. İşğala məruz qalması ilə Şuşada düzənlənən silsilə tədbirlər də dayandırıldı. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşanın azad edilməsi münasibətilə xalqa müraciətində əmin etdi ki, Qarabağın tacı olan bu şəhər tezliklə dirçəldiləcək, özünün əvvəlki şöhrətini qaytaracaq. Artıq Şuşa həmin günlərini yaşayır.

Azərbaycanın mədəniyyət paytaxtı bu dəfə də musiqisevərləri, muğamsevərləri xoş ovqatla qarşılayıb. Avqustun 5-də Şuşa daha bir möhtəşəm tədbirə evsahibliyi etdi. Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyi və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə keçirilən VIII "Muğam" Televiziya Müsabiqəsinə musiqi beşiyində yekun vuruldu. Müsabiqənin finalı və qala-konserti Şuşada təşkil olundu. Belə ki, final gecəsi avqustun 5-də keçirildi.

Finala tanınmış sənət adamları, mədəniyyət və incəsənət xadimləri dəvət olunmuşdu. Final gecəsinin açılışını Xalq artisti Mənsum İbrahimov etdi. Sonra iştirakçıların ifaları dinlənildi, münsiflər heyətinin məşvərətindən sonra qaliblər elan olundu.

Müsabiqənin finalı Bülbülün Ev-Muzeyinin həyətində təşkil olundu.

Qeyd edək ki, "Muğam" Televiziya Müsabiqəsi Heydər Əliyev Fondunun uğurlu layihələrindən biridir. 2005-ci ildən başlanan muğam müsabiqəsi 8-ci dəfədir ki, gənc muğam ifaçılarına öz istedad və bacarıqlarını geniş auditoriyadan nümayiş etdirmək imkanı verir. İndiyədək keçirilən muğam müsabiqələri iştirakçılarının bir çoxu ölkəmizdə, eləcə də onun hüdudlarından kənarda muğam sənətimizi layiqincə təmsil və təbliğ edirlər.

2005-ci ildən etibarən keçirilən "Muğam" müsabiqəsinin builki özəlliyi yarışmaya azyaşlı muğam ifaçılarının da qatılması və mükafatlar uğrunda mübarizə aparması olub.

VIII "Muğam" Televiziya Müsabiqəsinin seçim turları aprelin 9-da başlanıb, müsabiqə Ağdam, Füzuli və digər işğaldan azad olunmuş ərazilərlə yanaşı, bütün regionları əhatə edib. Mayın 10-da yarışmaya start verilib. Müsabiqə üç ay müddətində həftədə iki dəfə olmaqla Azərbaycan Televiziyası vasitəsilə canlı yayımlanıb.

Finalın Şuşada keçirilməsi VIII "Muğam" Müsabiqəsinin məhz "Şuşa ili"nə təsadüf etməsi ilə bağlıdır. Muğamın beşiyi olan mədəniyyət paytaxtımızda yarışmaya yekun vurulması "Şuşa ili"nə töhfədir. Eyni zamanda bu tədbirlər Şuşanın həsrətini çəkdiyi musiqili, muğamlı günlərinə dönüşüdür.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*




## İnsan tələfatı və yanğınların artması vəziyyətin daha da kəskinləşəcəyi proqnozunu doğruldur

Qlobal iqlim dəyişikliyi son aylarda dünyanın əksər ölkələrində ağır faciələrə səbəb olur. Xüsusən də Avropadakı anomal istilər ciddi fəsadlar yaradır. Mütəxəssislər dünyanın yeni klimatik (havaya bağlı yüksək stres) normalara keçdiyini deyərək, bir neçə ilə anomal istilərin daha da kəskinləşəcəyini söyləyirlər. Onların fikrincə, hava normaları artıq 20-30 il əvvəlki kimi deyil, Yer kürəsi indi daha isti klimata keçib.

### İstilər ötən ay İspaniyada 2064, Portuqaliyada 1065 nəfərin həyatına son qoyub

İqlim dəyişikliyinin yaratdığı fəsadlar Avropa ölkələrinin rəhbərliyini müvafiq tədbirlər görməyə məcbur edib. Buna səbəb insan tələfatı və güclü yanğınlardır.

Məsələn, ötən ay İspaniyada anomal istilər 2064 nəfərin ölümünə səbəb olub. Keçən ilin iyulunda analoji səbəblə ölənlərin sayı bundan 4 dəfə az idi. Bu ilin iyul ayında İspaniyada orta temperatur 38-40 dərəcəyə çatıb. Dünyasını dəyişənlərdən 1321 nəfərin yaşı 85-dən yuxarı, 470 nəfər 75-84 yaş, 176 nəfər 65-74 yaş, 83 nəfər isə 45-64 yaş aralığındadır. Təəssüf ki, 14 yaşına qədər 10 uşaq da anomal istilər səbəbindən ölüb. Ən yüksək ölüm göstəricisi 18-19 iyul tarixlərində qeydə alınıb. Həmin tarixlərdə 184 nəfər dünyasını dəyişib.

Rusiyada avqust ayında son 100 ilin anomal istiləri gözlənilir. Ölkənin 15-dən çox bölgəsində hava temperaturunun 32 dərəcədən yuxarı olacağı təxmin edilir. Bu, Rusiya üçün yay normasından 5-8 dərəcə yüksəkdir. Hətta soyuq Yakutiyada da bu yay isti keçir, temperatur 25 dərəcədir. Metereoloqlar artıq bununla bağlı dövlət qurumlarına və əhaliyə xəbərdarlıq ediblər.

Anomal istilərdən ciddi əziyyət çəkən digər bir ölkə isə Portuqaliyadır. Portuqaliya Dəniz və Atmosfer İnstitutunun məlumatına görə, ölkədə havanın temperaturu yüksək yanğın riski səviyyəsindədir. Ötən ay ölkədə isitlərdən 1065 nəfər dünyasını dəyişib. Ölkənin bəzi bölgələrində temperaturun 40 dərəcədən çox olduğu, ölkə ərazilərinin 80 faizində quraqlıq hökm sürdüyü, 13 fərqli bölgədə yanğınların baş verdiyi, bir çox yaşayış məntəqəsinin alov təhlükəsi altında olduğu bildirilir.

Mütəxəssislər avqust ayında temperatur dərəcəsinin yüksək həddə çatması ilə əlaqədar daha çox ölüm hallarının qeydə alınacağını ehtimal edirlər.

Çinin meteorologiya xidməti ölkə ərazisinin təxminən yarısında güclü istilərlə əlaqədar yüksək təhlükə səviyyəsi elan edib. Ölkə üçün anomal istilər cənubda, mərkəzi və şərqi regionlarda qeydə alınıb. Bundan əlavə, ölkənin şimalındakı Şensi əyalətində də isti hava şəraiti davam edir. Yüksək temperaturun davam etdiyi yerlərdə sakinlərə açıq havada işləməmək tövsiyə olunub. Hidrometeoroloqlar Çinin cənub-qərbindəki Çuntsin şəhərində temperaturun 40 dərəcəyədək yüksələcəyini proqnozlaşdırırlar.

### Bir ay Azərbaycanda 43 nəfər günvurmadan xəstəxanalıq olub

İstilər Azərbaycanda da özünü göstərir. Hətta bəzi günlərdə temperatur 40 dərəcəyədək yüksəlib. Bununla əlaqədar günvurmaların sayında artım müşahidə olunub.

TƏBİB-dən qəzetimizə verilən məlumata görə, iyunun 1-dən avqustun 2-dək Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına günvurma səbəbi ilə 43 çağırış daxil olub. Xəstələrdən 23 nəfəri hospitalizasiya edilib, 20 nəfərə isə yerində yardım göstərilib. Müraciət edənlərdən 30-u böyük, 13-ü uşaq, hospitalizasiya olunanlardan isə 16 nəfəri böyük, 7 nəfəri uşaqdır.

Yay mövsümü ilə əlaqədar önümüzdəki həftələrdə istilərin davam edəcəyi düşünülsə də, meteoroloqlar avqust ayı ərzində havanın orta aylıq temperaturunun iqlim normasına yaxın olacağını söyləyirlər.

### Günvurmalardan necə qorunmaq olar

Anomal istilər zamanı insanlar arasında günvurma hallarında da artım müşahidə olunur. Yüksək temperatur yaşlılar, uşaqlar və xəstələr üçün daha təhlükəlidir. İnsan orqanizminin həddindən artıq qızması nəticəsində qan damarları genişlənir və beynə güclü qan axını baş verir. İlkin müdaxilə olaraq mütləq bədənin temperaturu aşağı salınmalı, sərin su içilməli, soyuq kompres və ya vanna qəbul edilməlidir.

Anomal istilər zamanı Günəş altında iş görən şəxslərin fəaliyyətlərinin dayandırılması vacibdir. Küçəyə çıxarkən isə gündən qorunmaq üçün baş örtüklərindən istifadə etmək və ya çətir götürmək lazımdır.

Yay aylarında maye qəbuluna xüsusilə diqqət yetirmək lazımdır. Bundan əlavə, ət və xəmir yeməklərindən də uzaq durulmalı, əsasən mövsümün meyvə və tərəvəzlərinə üstünlük verilməlidir.

Yay fəslinin qızmar günlərinin hələ qarşıda olduğunu nəzərə alsaq, günvurma hallarının sayının artacağı istisna edilmir. Odur ki, isti günlərdə insanlar ən çox kölgəli yerlərdə olmağa, çoxlu maye qəbul etməyə üstünlük verməlidirlər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Erməni diasporu hakimiyyətə qarşı çıxır

## Dövlət isə "Daşnaksütyun" üzvlərinin İrəvana girişinə qadağa qoyur

Ermənistanın bir dövlət olaraq ayaq üstə qalmasında mühüm rol oynayan diaspor və lobbi qüvvələri ilə İrəvan hakimiyyəti arasında son dövrlərdə münasibətlərin əhəmiyyətli dərəcədə pisləşməsi müşahidə olunmaqdadır.

Əslində, İrəvanın region dövlətlərlə düşmənçilik siyasətinin həyata keçirilməsində diasporun da rolunun olduğu heç kimə sirr deyil. İndi görünən odur ki, mövcud hakimiyyət diasporun təsir dairəsindən uzaq olmağa çalışır.

Xatırladaq ki, Ermənistanın milli təhlükəsizlik xidməti "Vətəndaşlıq haqqında" qanuna əlavə və dəyişikliklərin edilməsi ilə bağlı qanun layihəsini ictimai müzakirəyə təqdim etmişdi. Layihədə "diaspor ermənilər"nin Ermənistan vətəndaşlığı almaları üçün prosedurların sərtləşdirilməsi nəzərdə tutulurdu. Xaricdə yaşayan ermənilər üçün vətəndaşlıq almaq prosedurunun sərtləşdirilməsinin əsas səbəbləri bölgədəki vəziyyət, Ermənistan vətəndaşlığı alan şəxslərin sonradan ölkəyə gəlməmələri və erməniliyin xeyrinə fəaliyyət göstərməmələridir.

Artıq Fransa erməni təşkilatları əlaqələndirmə şurasının sədri (CCAF), "Daşnaksütun" Erməni İnqilab Federasiyası bürosunun təmsilçisi Murad Papazyandan sonra "Daşnaksütun"un daha 2 təmsilçisinin - təsisatın Niderland ofisinin sədri Masis Abramyanın və gənclər təşkilatının üzvü Süne Abramyanın Ermənistana girişinə qadağa qoyulub. Sonuncu 2 şəxs "Zvartnots" hava limanının tranzit zonasında saxlanılıblar. Murad Papazyan son açıqlamasında Paşinyan hakimiyyətinə "müharibə" elan edib və bildirib ki, Fransa erməniləri Ermənistanı mövcud rejimdən xilas etmək üçün mübarizə aparacaqlar.

Son aylarda erməni faşizminin əsas dayaqları olan erməni kilsəsi və diasporunda parçalanmalar nəzərə çarpır və xüsusilə Fransada bu proses daha ağrılı və ziddiyyətli keçir. Ənənəvi erməni diaspor təşkilatlarına yeni alternativlər yaranır və 1991-ci ildən sonra Fransaya köçən ermənilər bu prosesdə daha fəal iştirak edirlər.

Bu xüsusda ziddiyyətlərin səbəbləri haqqında Fransada yaşayan erməni əsilli politoloq və şərqşünas Tiqran Yeqavyanın yanaşması diqqəti cəlb edir. O bildirib ki, Ermənistanla erməni diasporu arasında qarşılıqlı etimad yoxdur. Müharibə göstərdi ki, Ermənistan və diaspor arasındakı uçurum həmişəkindən daha dərindir. Demək olar ki, etimad bağı tamamilə qırılıb. İşgüzar münasibətlərin qurulması üçün sağlam bünövrə yoxdur. İndiyədək Ermənistanla erməni diasporu arasındakı əlaqələr əsasən iki istiqaməti - turizm və humanitar yardım sahələrini əhatə edirdi. Bu sıraya məhdud investisiyaları da əlavə etmək olar. Təəssüf ki, bu, təkcə indiki hakimiyyətin problemi deyil və xeyli öncə, Ermənistanda müstəqillik hərəkatından və müstəqilliyin əldə edilməsindən sonra yaranıb. Xarici erməni təşkilatları müstəqil erməni dövlətinin yaranmasına hazır deyildilər və hesab edirdilər ki, Ermənistan bununla Rusiyanın (təhlükəsizlik - E.M.) zəmanətini itirərək "pantürkizm"in hədəfinə çevriləcək. Yəni əsas problem dövlətçilik ideyası ilə bağlı idi. Ümumiyyətlə isə, xaricdə yaşayan ermənilərin siyasi düşüncəsi yoxdur. Onların Ermənistan, millət, erməni məsələsi və dövlətə münasibətdə ideyaları həddindən artıq abstraktdır.

Ermənistanın üzləşdiyi çoxsaylı problemlərin meydana gəlməsində və getdikcə daha da dərinləşməsində əsas günahkar tərəflərdən biri kimi diaspor təşkilatları göstərilir. Ermənistanın istər daxili, istərsə də xarici siyasətinin müəyyən olunmasında həlledici təsir gücünə malik olan diaspor təşkilatlarının mövcud fəaliyyəti adıçəkilən ölkəni getdikcə daha böyük problemlərə düçar edir. Fəaliyyət göstərdiyi xarici ölkə ərazisində özünə rahat şərait yaradan, maddi çətinliklərlə qarşılaşmayan erməni diasporunu, əslində, Ermənistanın üzləşdiyi problemlər qətiyyən maraqlandırmır. Əksinə, diaspor Ermənistan hakimiyyətinin onun diktəsi ilə hərəkət etməsi üçün daim rəsmi İrəvanı böyük təzyiq altında saxlayır, tez-tez bu ölkəyə göndərdiyi maliyyə və digər yardımları kəsəcəyi ilə hədələyir.

Elə bunun nəticəsidir ki, Ermənistanın taleyini həll edən qərarlar ölkə daxilində yox, onun sərhədlərindən kənarda qəbul olunur. Bu vəziyyət Ermənistanın onsuz da formal xarakter daşıyan dövlətçiliyinin məhvini daha da sürətləndirməklə onun iflasını tezləşdirir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

"Real MTK" tərəfindən Naxçıvan MR, Ordubad rayonu, Aşağı Əylis kəndində qeydiyyatda olan Məmmədov Natiq Rəşid oğluna verilmiş Bakı şəhəri, Nərimanov rayonu, X.Şuşinski küçəsi 21 ünvanında yerləşən 128 saylı mənzilə dair bağlanmış 148 saylı alqı-satqı müqaviləsi və mənzilin ödənişi barəsində kassa mədaxil orderinin qəbzləri itdiyi üçün etibarsız sayılır.

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları

**HÜSEYN KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6065
Sifariş 2144
Qiyməti 40 qəpik